
100 ilin qəzeti
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır
ŞƏRQ QAPISI
Sayı: 33 (24.468)
30 avqust 2025-ci il, şənbə
www.serqqapisi.az
Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# 1991-ci il 3 sentyabr:

# Azərbaycanın müasir dövlətçilik tarixində mühüm təqvim



## Ulu Öndər Heydər ƏLİYEV:

***“Mənim həyatımın müxtəlif səhifələri var. Çox şanlı-şöhrətli, eyni zamanda çox əzab-əziyyətli. Onların hər biri mənim üçün əzizdir. Ancaq 90-93-cü ildə sizinlə bərabər blokada şəraitində ağır vəziyyətdə, çətin vəziyyətdə yaşadığım günlər mənim üçün ən əziz günlərdir və onları heç vaxt unutmayacağam”.***

Müasir Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasında, xalqın taleyinin həllində mühüm rola malik bir neçə tarixi mərhələ vardır ki, həmin mərhələlər bugünkü müstəqilliyimizin, inkişaf və tərəqqi yolumuzun dönüş nöqtələri hesab olunur. Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olan bu dönəmlərdən birinin tərkib hissəsi olaraq ölkəmizi əbədi müstəqilliyə qovuşdurmaq baxımından 1991-ci ilin 3 sentyabr təqvimi xüsusi önəm daşıyır. Dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi bu tarixi xalqımız öz xilasına aparan yolun başlanğıc günlərindən biri kimi daim hörmət və ehtiramla xatırlayır. Dövlətçiliyimizin laxlamaqda olan sütunlarının bərpa edilməyə başlandığına əminlik yaradan həmin ictimai-siyasi hadisə Ulu Öndərin doğulub boya-başa çatdığı doğma Vətəni Naxçıvanın düşmən təhlükəsindən, aclıq, səfalət girdabından qurtuluşu istiqamətində atılan mütərəqqi addım olaraq da xarakterizə edilir. Tarixi gedişatı diqqətlə nəzərdən keçirəndə aydın olur ki, əslində, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətçiliyinin Naxçıvan salnaməsini bir qədər də əvvəldən – 1990-cı ildən yazmağa başlamışdır.

1990-cı il iyulun 22-də doğma Vətəni – canı qədər sevdiyi Naxçıvana qayıdışı ilə Ümummilli Lider müasir, müstəqil Azərbaycan tarixinin ən önəmli səhifələrinin əbədiyaşar müəllifinə çevrildi. Qısa zamanda Naxçıvan milli azadlıq hərəkatının mərkəzi oldu, ölkəmiz müstəqilliyə doğru böyük dönüş yoluna məhz buradan qədəm qoydu. Ulu Öndər minlərlə naxçıvanlının coşqusu, sevgisi, məhəbbəti ilə 1991-ci il 3 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Və ən çətin, məsuliyyətli, eyni zamanda da qürurlu, şərəfli günlər, illər də bundan sonra başladı. Tariximizin qara səhifələrinin üzərindən əbədi xətt çəkilərək qızıl hərflərlə yeni, parlaq səhifələr yazıldı. Dahi şəxsiyyətin yuxusuz gecələrdə, çıraq işartısında qəbul etdiyi və dövlətçiliyin hüquqi bazasını təşkil edən mühüm tarixi qərarlar xalqımızı, sözün əsl mənasında, gün işığına, aydın sabahlara çıxardı.

Ümummilli Lider 1990-1993-cü illərdə Azərbaycanın dövlətçilik tarixi üçün xüsusi önəm daşıyan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “sovet, sosialist” sözlərinin çıxarılması, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Ali Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilməsinə və digər mütərəqqi addımların atılmasına nail oldu. Siyasi sabitliyə xidmət edən, ölkəmizi inamlı, etibarlı gələcəyə daşıyan, dünyada qüdrətli söz, mövqe, nüfuz sahibi edən, vahid siyasi platformaya çevrilən Yeni Azərbaycan Partiyasını təsis etdi. Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və sovet ordu hissələri bu ərazidən çıxarıldı. Ulu Öndər Heydər Əliyev, həmçinin milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə, 1990-cı il 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında Qərar qəbul olundu. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əksini tapdı. Bununla yanaşı, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə tarixi qərar da məhz dahi şəxsiyyəti yetişdirən torpaqda qəbul olundu. Bütün bunlarla yanaşı, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü, eyni zamanda aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı yönündə xüsusi işlər həyata keçirildi.

Səhifə ⇨ 2

Prezident İlham Əliyev: “Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq” 3
Milli təəssübkeşliyin və Vətənə xidmətin örnəyi 6-7
Vətənimizin alınmazlıq simvoludur Sədərək 10
Naxçıvan bazarı *Kəndlinin alın tərinin şəhərlə qovuşduğu yer* 11
“Qarabağ” tarix yazmağa davam edir 12

# 1991-ci il 3 sentyabr:
## Azərbaycanın müasir dövlətçilik tarixində mühüm təqvim

*(əvvəli 1-ci səhifədə)*



Ümummilli Liderimiz Heydər Əliyevin doğma yurdu – Naxçıvanı qarşısında tarixi xidmətlərindən ən mühümü, sözsüz ki, onun muxtariyyətini qoruyub saxlamaq və işğaldan qurtarmaq idi. Muxtar respublikanı blokadanın yaratdığı ağır, dözülməz şəraitdən çıxarmaq, insanları aclıq, səfalət, qıtlıq məngənəsindən xilas etmək üçün gecəsini gündüzünə qatan Ulu Öndər çıxış yolunu məhz Türkiyə ilə əlaqələrin siyasi, iqtisadi cəhətdən daha da möhkəmləndirilməsində görürdü. Uzaqgörən siyasətçi bu məqsədlə 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfər etdi və səfər çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalandı. Qısa zamanda Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanıldı. Ümummilli Liderin qardaş ölkəyə səfərindən iki ay sonra, daha dəqiq desək, 1992-ci il mayın 28-də arzuların, ümidlərin çiçək açdığı həmin körpü istifadəyə verildi. Beləliklə də, vaxtilə iki qardaşı ayrı salan, həsrət yanğısı ilə əsib-coşan Araz çayı həmin qardaşların vüsalına, birliyinə də vəsilə oldu. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Bu gün bu qocaman Araz çayı üzərində, qədim Türk dünyasında, Azərbaycan torpağında böyük bir tarixi hadisə baş verir. Türkiyə ilə Azərbaycan arasında "Ümid" körpüsü, "Həsrət" körpüsü açılır. Biz azərbaycanlılar, türklər əsrlərboyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, diləklərimiz gerçəkləşib".***

İnsanların maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, qərbə inteqrasiyasına yol açan bu addım, eyni zamanda həmin dövrdə Sədərək və Şahtaxtı gömrük-keçid məntəqələrinin fəaliyyətə başlaması Naxçıvanın Türkiyənin yaxın vilayətləri ilə iqtisadi, ticarət əlaqələrinin genişlənməsinə, beynəlxalq daşımalara qoşularaq nəqliyyat imkanlarının artmasına da təkan verdi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizi müstəqilliyinə aparan yolun təməl daşlarının atıldığı mübarək türk torpağı Naxçıvanda həm də iki qardaş – Türkiyə və Azərbaycanın əlaqələrində yeni mərhələnin körpüsü salındı.

Ümummilli Liderimiz Heydər Əliyevin məhz Naxçıvandan başlanan xilaskarlıq yolu 1993-cü ildə ölkəmizi böyük qurtuluş yoluna çıxartdı, həyatın bütün sahələrində inkişaf, tərəqqi təmin olundu. Ulu Öndərin ideyalarına sədaqətin nəticəsidir ki, bu gün ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş, qalib ölkə kimi Azərbaycan beynəlxalq miqyasda əsl siyasi nüfuz, iradə sahibidir. Prezident İlham Əliyevin uzaqgörən, məharətli diplomatiyası sayəsində müharibə meydanında qələbə qazanan respublikamız sülh arenasında da qalibiyyət əldə edib. Bu il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunan tarixi razılaşmalar Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər ərazisi ilə nəqliyyat əlaqəsinin təmin olunmasına, Zəngəzur dəhlizinin açılmasına şərait yaratmaqla gələcəkdə bu bölgəmizin iqtisadi yüksəlişinə, ixrac imkanlarının genişlənməsinə səbəb olacaq. Beləliklə, Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvanın blokadadan tamamilə xilas olaraq tərəqqi və inkişaf diyarına çevrilməsi ilə bağlı ideyaları daha böyük təntənəsini yaşamağın astanasındadır.

### *Ulu Öndərin ideyaları işığında Naxçıvan: inkişafın yeni mərhələsi, "yaşıl enerji", "yaşıl nəqliyyat"*

Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasi yola sonsuz sədaqət göstərən Prezident İlham Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafı, təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm qərarlar verir, sərəncam və fərmanlar imzalayır. Muxtar respublika böyük inkişaf, tərəqqi yolu keçib, paytaxt Naxçıvan şəhərindən ta ki ucqar dağ kəndinədək müasir təhsil, mədəniyyət, səhiyyə infrastrukturu yaradılıb, ərazinin yüz faizi elektrik və qazla təchiz edilib. Qürurverici haldır ki, ölkəmizin müstəqilliyə qovuşmasında əhəmiyyətli yer tutan Naxçıvan Azərbaycanın haqq savaşına çıxdığı 44 günlük Vətən müharibəsində də mühüm rol oynadı, muxtar respublikadan olan əsgər və zabitlər torpaqlarımızın azadlığının təminində böyük şücaət və qəhrəmanlıq göstərdilər.

2022-ci ilin sonlarından Naxçıvan Muxtar Respublikasının idarəetmə strukturunda aparılan islahatlardan sonra səlahiyyətli nümayəndəlik institutunun yaradılması ilə qədim diyar müasir yüksəlişinin yeni mərhələsinə qədəm qoyub, idarəçiliyin bütün sahələrində şəffaflaşma prosesi aparılıb, ölkə sisteminə inteqrasiya uğurla reallaşdırılmaqdadır. Dövlət başçısı 2023-cü il iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi ilə bağlı Sərəncam imzalayaraq Naxçıvanın tərəqqisi naminə yeni yol xəritəsini müəyyənləşdirib. Dövlət Proqramı müəyyən vəzifələrin reallaşdırılmasını, prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir. Bu sənəd, ümumilikdə, iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsullarının istehsalının və emalının, turizmin, sosial sektorun, insan kapitalının və infrastruktur təminatının inkişafı, elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 prioritet istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutur. Dövlət Proqramının icrası ilə yaxın gələcəkdə Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi, burada fəaliyyət göstərən şirkətlər üçün vergi və gömrük güzəştləri, daşıma və digər sahələrdə müvafiq stimullaşdırma tətbiq edilməsi əsas məqsədlərdəndir.

Dövlət başçısının 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı əsasında həyata keçirilən müxtəlif layihələr və tədbirlər Naxçıvanın zəngin mədəni irsinin və müasir nailiyyətlərinin dünyaya tanıdılmasında əvəzsiz rol oynayıb. Eyni zamanda hazırda Naxçıvanda iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, diversifikasiyası məqsədilə mühüm layihələr reallaşdırılmaqdadır. Prezident İlham Əliyevin imzaladığı Fərmanla yaradılacaq Naxçıvan Sənaye Parkı gələcəkdə müasir texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli məhsul istehsalı, yeni iş yerlərinin yaradılması və sahibkarlığın inkişafı üçün unikal imkanlar açacaq. Bu sənaye parkı sahibkarlara səmərəli fəaliyyət üçün zəruri infrastrukturu təmin edərək Naxçıvanın iqtisadi inkişafına töhfə verəcək, məhsulların xaricə ixracını stimullaşdıracaq.

Ölkə Prezidentinin ***"Naxçıvanla da bağlı böyük planlarımız var"*** ideyası üzərində Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan etməsi muxtar respublikanın potensial imkanlarından maksimum yararlanmaqla sosial-iqtisadi inkişafı üçün qarşıda mühüm vəzifələr qoyub. Burada günəş və külək elektrik stansiyalarının inşası istiqamətində böyük layihələrin icrası planlaşdırılıb. Naxçıvanın alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi, dövlət-özəl tərəfdaşlığı ilə yeni enerji layihələrinin həyata keçirilməsi, yeni istilik elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Eyni zamanda Naxçıvanda "yaşıl nəqliyyat" infrastrukturu yaradılır, elektrik şəbəkələri tam yenilənir ki, bu da yaxın gələcəkdə muxtar respublikada həyatın yeni dönəminin başlayacağından xəbər verir. Beləliklə, vaxtilə işıqsız, qazsız yoxsul məmləkəti xatırladan Naxçıvan bu gün "yaşıl enerji" istehsalı, ixrac potensialına malik tərəqqi diyarına çevrilib. Prezident İlham Əliyevin siyasi qətiyyəti və məharətli diplomatiyası sayəsində tezliklə açılacaq Zəngəzur dəhlizi ölkəmizin bu regionunun blokadasının tamamilə aradan qaldırılmasına, dünya iqtisadi sisteminə uğurlu inteqrasiyasına yol açmaqla onun hərtərəfli inkişafına güclü təkan verəcək.

Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları işığında, Prezident İlham Əliyevin uzaqgörən siyasəti və mütərəqqi addımları ilə qədim diyar Naxçıvanın müasirləşməsi, muxtar respublikanın inkişafı yaxın vaxtlarda daha da bariz, nümunəvi hal alacaq. Nə qədər zaman ötsə də, qədirbilən naxçıvanlılar Ulu Öndərlə birgə keçirdikləri ən çətin anları, günləri unutmur, dahi şəxsiyyətin yoluna sədaqətlə əziz xatirəsini, dəyərli fikirlərini daim hörmət və ehtiramla xatırlayırlar: ***"Mənim həyatımın müxtəlif səhifələri var. Çox şanlı-şöhrətli, eyni zamanda çox əzab-əziyyətli. Onların hər biri mənim üçün əzizdir. Ancaq 90-93-cü ildə sizinlə bərabər blokada şəraitində ağır vəziyyətdə, çətin vəziyyətdə yaşadığım günlər mənim üçün ən əziz günlərdir və onları heç vaxt unutmayacağam".***

**Nail ƏSGƏROV**

# Prezident İlham Əliyev: “Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq”



Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində Zəngəzur dəhlizi layihəsi (TRIPP), Azərbaycan-İran münasibətləri və regionda strateji mövqeyimiz barədə geniş məlumat verdi. Müsahibədə xüsusilə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunan razılaşmanın əhəmiyyəti və dəhlizin reallaşma perspektivləri diqqət mərkəzində oldu.

Azərbaycanın geopolitik mövqeyi və regiondakı strateji təşəbbüsləri son illərdə beynəlxalq müstəvidə diqqət mərkəzindədir. Bu baxımdan ən mühüm layihələrdən biri Zəngəzur dəhlizi – Prezident İlham Əliyevin “Tramp marşrutu” adlandırdığı, həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərini birləşdirəcək strateji layihədir.

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın tarixi bölünməsinin səbəblərinə diqqət çəkdi. Bildirdi ki, 1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb və müsəlman dünyasında ilk demokratik respublika kimi tarixə düşüb. Lakin 1920-ci ilin aprelində sovet Rusiyası tərəfindən işğal edilən Azərbaycan ərazisinin bir hissəsi Ermənistana verilmiş, nəticədə, Azərbaycan iki hissəyə bölünmüşdür.

Sovet dövründə bu bölgələr arasında sərhəd maneələri yox idi. İnsanlar Naxçıvana sərbəst şəkildə gedib-gələ bilirdilər. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçı siyasəti bu əlaqələri kəsdi, Naxçıvana yalnız uzun və çətin alternativ yollarla çatmaq mümkün oldu.

İkinci Qarabağ müharibəsinin Azərbaycan ordusunun qələbəsi ilə başa çatmasından sonra Zəngəzur dəhlizinin açılması perspektivi ön plana çıxıb. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın məqsədi həmin hissəni güc yolu ilə almaq deyildi; əsas prioritet, Naxçıvan və Azərbaycanın əsas hissəsi arasında təhlükəsiz, beynəlxalq standartlara uyğun nəqliyyat-kommunikasiya xətlərinin təmin olunmasıdır.

Prezident müsahibəsində bildirdi ki, layihənin reallaşması üçün ABŞ-nin və beynəlxalq tərəfdaşların iştirakı önəmlidir. Tramp və komandası tərəfindən vasitəçilik təşəbbüsü layihəyə yeni impuls verdi və bu, Zəngəzur dəhlizini TRIPP – “Trump Route for International Peace and Prosperity” adlandırmağa imkan yaratdı. Prezident əminliyini ifadə etdi ki, dəhliz yaxın zamanda fiziki infrastruktur – dəmir yolu və avtomobil yolu ilə istifadəyə veriləcək.

Layihənin icrasında beynəlxalq investorların, xüsusilə ABŞ investorlarının iştirakı mümkündür. Prezident vurğuladı ki, Azərbaycanın əsas məqsədi layihənin tamamlanması və vətəndaşların Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında təhlükəsiz hərəkət edə bilməsidir. Bu həmçinin regionda etibarlı tranzit imkanlarının yaradılmasına xidmət edəcək.

Zəngəzur dəhlizi yalnız Azərbaycanın iki hissəsini birləşdirmir. O həm də Orta və Şimal-Cənub dəhlizləri ilə inteqrasiya olunaraq Asiya ilə Avropanı birləşdirən yeni nəqliyyat şəbəkəsi yaradır. Prezident İlham Əliyev qeyd etdi ki, Zəngəzur dəhlizi alternativ marşrut kimi Ermənistan üçün də faydalıdır: tranzit haqları və iqtisadi imkanlar təmin ediləcək.

Eyni zamanda bu dəhliz regional əməkdaşlıq üçün mühüm platformadır. Azərbaycan vasitəsilə yük daşımaları artır və qitələrarası ticarət asanlaşır. Bu, region ölkələrinin hamısı üçün “qalib-qalib” situasiyasını yaradır.

Jurnalistin İranla bağlı sualına cavab olaraq Prezident İlham Əliyev Azərbaycanın İranla güclü və işgüzar münasibətlər qurduğunu vurğuladı. Bildirdi ki, Azərbaycan-İran əməkdaşlığı hökumətlər və dövlət başçıları səviyyəsində aparılır və Zəngəzur dəhlizi heç bir şəkildə İrana təhdid yaratmır. Əksinə, Azərbaycan, İran və Ermənistanın dəhliz üzərindən yük daşımalarını nəzərə alaraq regional əməkdaşlığı gücləndirməyə hazırdır.

Prezident, həmçinin Araz dəhlizi layihəsini xatırladtı ki, Ermənistan Zəngəzur dəhlizini blokladığı halda, alternativ marşrut İran ərazisi üzərindən həyata keçirilir. Bu dəhliz artıq tikinti mərhələsindədir və gələcəkdə dəmir yolu bağlantısı ilə yük daşımaları üçün əlavə imkanlar yaradacaq.

Zəngəzur dəhlizi təkcə Şərq-Qərb istiqamətində deyil, həm də Şimal-Cənub əlaqələrini möhkəmləndirir. Azərbaycan vasitəsilə Rusiya-İran nəqliyyat əlaqələri daha çevik və alternativ marşrutlarla təmin olunacaq. Bu, regionda təhlükəsizlik, iqtisadi inteqrasiya və tranzit imkanlarını artıran strateji layihə kimi önə çıxır.

Prezident İlham Əliyevin müsahibəsi göstərir ki, Zəngəzur dəhlizi – Tramp marşrutu Azərbaycanın strateji və regional vizyonunun mərkəzindədir. Bu dəhliz yalnız Azərbaycanın iki hissəsini birləşdirmir, həm də Asiya və Avropanı birləşdirən beynəlxalq nəqliyyat şəbəkəsini gücləndirir, region ölkələri üçün yeni iqtisadi və tranzit imkanları yaradır. Eyni zamanda layihə Azərbaycanın regional əməkdaşlıq və sülh təşəbbüslərinin göstəricisi olaraq beynəlxalq aləmdə nüfuzunu artırır.

**Rauf CƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Zəngəzur dəhlizi Naxçıvanın tarixi missiyasının bərpasına xidmət edəcək



Azərbaycan liderinin uğurlu xarici siyasət doktrinası, məharətli diplomatiyası ilə paralel dünyada və regionda baş verən hadisələrə praqmatik yanaşma tərzi, məsələlərə səlis məntiqlə şərh verməsi aparıcı media orqanlarının da diqqətinə, gündəminə hakim kəsilir. Təsadüfi deyildir ki, beynəlxalq əhəmiyyətli görüşlərin, tədbirlərin ardından ölkə başçımızdan geniş müsahibələr alınır, dediyi fikirlər xarici mediada əsas manşetə çevrilir. Bu baxımdan Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsi də regiondakı mövcud ictimai-siyasi mənzərəyə aydınlıq gətirdi, siyasi dairələrə düzgün istiqamət göstərən tezisləri ilə yadda qaldı.

Göründüyü kimi, Azərbaycan diplomatiyasının dünyanın bir nömrəli siyasi ofisi – Ağ evdəki tarixi nailiyyəti uzaq coğrafiyanı yaxınlaşdırmaq, ticarət və iqtisadi körpü salmaq baxımından Asiyada, Avropada, bütün aparıcı dövlətlər tərəfindən birmənalı şəkildə güclü dəstəyini alır, təqdir edilir. Beləliklə, Cənubi Qafqazın lideri 5 il öncə 44 günlük Vətən müharibəsi ilə ədaləti, beynəlxalq hüququ təmin etdiyi kimi, bu gün də regional və qlobal əməkdaşlıq platformasında daha ədalətli nizamı yaratmaqdadır. Yeni reallıq nəinki Türkiyə, Özbəkistan, Türkmənistan, Çin kimi dost, qardaş ölkələr üçün geniş imkanlar açacaq, hətta otuz il Azərbaycan xalqına düşmən mövqedə dayanan, sözügedən layihənin reallaşmasına hər vəchlə manea olmağa çalışan respublikaların da beynəlxalq iqtisadi əlaqələr sistemində mövqeyinin güclənməsində böyük rol oynayacaq. Bir sözlə, TRIPP (Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu) adlandırılan Zəngəzur dəhlizi dövlətlərarası münasibətlərin həm siyasi, həm iqtisadi, həm də mədəni cəhətdən tənzimlənməsi işinə əhəmiyyətli töhfələr verəcək. Prezident İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində layihənin potensialını bir daha yüksək qiymətləndirdi, onun qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacağını vurğuladı: ***“Mən bu mesajı erməni həmkarlarıma çatdırmağa çalışmışam ki, nəticədə, onlar tranzit ölkəyə çevriləcəklər. Potensialı varsa, hər bir ölkə tranzit ölkəyə çevrilməyə çalışır. Məsələn, biz tranzit ölkə olmaq istəyirik. İstəyirik ki, Şərqdən Qərbə, Şimaldan Cənuba dəhlizlər Azərbaycandan keçsin. Ermənistan isə işğal səbəbindən bu imkanlardan məhrum olmuşdu. Ölkədən keçən tranzit yoxdur. Zəngəzur dəhlizi sayəsində Ermənistan nəqliyyatdan tranzit haqqı əldə edəcək. Azərbaycanın ərazisi vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artdığını nəzərə alsaq, əminəm ki, Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq”.***

Prezident İlham Əliyevin müsahibədə toxunduğu mühüm məsələlərdən biri də Azərbaycanın barışdırıcı mövqeyi ilə bağlıdır. Bu xüsusda diqqətə çəkmək olar ki, respublikamız dəfələrlə Türkiyə-İsrail, Rusiya-Ukrayna, İsrail-Suriya münasibətlərinin tənzimlənməsi, yoluna qoyulması üçün vasitəçilik missiyasını üzərinə götürməyə çalışıb, mühüm təşəbbüslər irəli sürüb. Bütün münaqişə və müharibələrdə ölkələrin ərazi bütövlüyü və suverenliyinə dəstək dövlətimizin əsas prioritetlərindən hesab olunur, bu dövlət başçımız tərəfindən dəfələrlə bəyan edilib. Azərbaycan köməyə ehtiyacı olan ölkələrə humanitar yardımını heç vaxt əsirgəməyib. İstər Ukrayna, istərsə də Suriya olsun. Avqustun 2-dən Suriyaya qaz nəqlinə başlanması da məhz bu ölkənin öz ərazi bütövlüyü və suverenliyini təmin etmək, hərtərəfli inkişafına töhfələr vermək baxımından olduqca önəmli faktordur. Prezident İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində bütün bu və digər məsələləri diqqətə çatdırdı, separatizmdən əziyyət çəkən ölkə kimi Azərbaycanın bu cür qəbuledilməz hallarının qəti əleyhinə olduğunu vurğuladı.

Ümumilikdə, onu deyə bilərik ki, Prezident İlham Əliyevin digər müsahibələri kimi, Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsi də regiondakı dəyişikliklərə, ayrı-ayrı bölgələrdə hökm sürən mürəkkəb geosiyasi mənzərələrə tam şəkildə işıq saldı, ölkəmizin dünya nizamının formalaşdırılmasındakı mövqeyini ortaya qoydu. Bir daha əminlik yarandı ki, avqustun 8-də Vaşinqtonda keçirilən görüşlər həm Azərbaycana, həm də yaxın və uzaq coğrafiyalarda yerləşən ölkələrə böyük iqtisadi fayda, siyasi imic qazandıracaq. Qətiyyətlə demək olar ki, Zəngəzur dəhlizi Pekindən Londonadək uzanan ticarət körpüsünün – Böyük İpək Yolunun tam bərpasına xidmət etməklə vaxtilə karvan yolları üzərində yerləşən Naxçıvanın əvvəlki tarixi missiyasını, şöhrətini özünə qazandıracaq.

**Xəzəngül ORUCOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Türkmənbaşı Zirvəsi:




## Azərbaycan, Özbəkistan və Türkmənistan üçtərəfli əlaqələrində yeni səhifə

***Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərindən birini Mərkəzi Asiya regionunda yerləşən, din, dil yaxınlığı olan türkdilli ölkələrlə hərtərəfli əlaqələrin qurulması, bu respublikaları vahid ideya ətrafında birləşdirən Türk Dövlətləri Təşkilatının (TDT) nüfuzunun daha da gücləndirilməsi təşkil edir. Bu baxımdan Türkmənistan və Özbəkistanla münasibətlər qarşılıqlı hörmət və etimada əsaslanan faydalı əməkdaşlığın dərinləşməsinə, bölgədə davamlı sabitliyin, işgüzar mühitin formalaşmasına əvəzsiz töhfələr verir. Respublikamızın 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərlə yaratdığı yeni reallıqlar fonunda həmin ölkələrlə ikitərəfli əlaqələrdə mühüm perspektivlər açılmaqla yanaşı, üçtərəfli əməkdaşlıq platformasının da formalaşdırılması üçün əsaslar müəyyənləşdirilib. Prezident İlham Əliyevin avqustun 22-də Türkmənistana işgüzar səfəri, Türkmənbaşı şəhərində keçirilən görüşlər də son dövrlərdə cərəyan edən ictimai-siyasi proseslərin, imkanların dəyərləndirilməsi və birgə yeni fəaliyyət istiqamətlərinin, hədəflərin müəyyənləşdirilməsi baxımından faydalı müzakirələr, müvafiq qərarların qəbulu ilə nəticələndi.***



Səfər çərçivəsində Türkmənbaşı şəhərində Azərbaycan, Türkmənistan və Özbəkistan arasında yüksəksəviyyəli görüş xüsusi diqqət çəkdi, dialoqlarda hər üç ölkəni birləşdirən Orta Dəhliz, limanların genişləndirilməsi, dəmir yollarının müasirləşdirilməsi məsələləri ön plana çəkildi, çoxtərəfli əməkdaşlıq üçün geniş potensialın olduğu vurğulandı, birgə fəaliyyətin, koordinasiyalı addımların böyük coğrafiyaya xeyir gətirəcəyi diqqətə çatdırıldı. Liderlər Böyük İpək Yolunun bərpası üçün Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizləri çərçivəsində əlaqələri genişləndirmək barədə razılığa gəldilər. Xüsusən Mərkəzi Asiyanın və Xəzər hövzəsinin nəqliyyat infrastrukturunun gücləndirilməsi imkanları nəzərdən keçirildi. Böyük İpək Yolunun bərpası məsələsində, təbii ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarının genişləndirilməsi ilə yanaşı, Naxçıvanla Azərbaycanın digər ərazisini birləşdirən nəqliyyat xətti – Zəngəzur dəhlizi layihəsi də mühüm əhəmiyyət daşıyır. Avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalar respublikamızın müəllifi olduğu çoxdan gözlənilən bu layihənin gerçəkliyə çevrilməsi yolunda həlledici rol oynadı. Yeni bağlantı xəttinin istifadəyə verilməsi yaxın coğrafiyada yerləşən ölkələrin, o cümlədən də Azərbaycan, Türkmənistan və Özbəkistanın faydalı əməkdaşlığı üçün də geniş imkanlar açacaq. Bu xüsusda gələcəkdə Azərbaycan, Özbəkistan və Türkmənistan topdansatış paylama mərkəzləri şəbəkəsinin yaradılması məhsulların üç ölkənin bazarlarına asan çıxışını təmin etməklə dayanıqlı ticarət və logistika zəncirlərinin inkişafına səbəb olacaq. Ölkələrarası iqtisadi, mədəni əlaqələrin güclənməsinə təkan verən, ticarətin həcminin artmasına şərait yaradan Zəngəzur dəhlizi, eləcə də topdansatış paylama mərkəzləri hər üç ölkənin üzvü olduğu TDT-nin də iqtisadi nüfuzunun yüksəlməsinə, təsir dairəsinin genişlənməsinə, beynəlxalq əhəmiyyətinin artmasına gətirib çıxaracaq.

Azərbaycan Vətən müharibəsində olduğu kimi, ondan sonrakı mərhələdə, daha dəqiq desək, Qarabağın, Şərqi Zəngəzurun bərpası, yenidənqurulması prosesində də türkdilli dövlətlərin davamlı dəstəyini görür, hiss edir. Bu baxımdan Şavkat Miromonoviçin təşəbbüsü ilə Füzulidə dahi özbək mütəfəkkiri Mirzə Uluqbəyin adını daşıyan 960 şagird yerlik orta məktəbin istifadəyə verilməsi iki ölkə arasında qardaşlıq bağlarının gücündən xəbər verir. Özbəkistan respublikasının sərmayəsi əsasında fəaliyyət göstərən Xankəndi tikiş fabriki isə bölgənin iqtisadi, işgüzar həyatında yeni mərhələnin əsasını qoyur desək, yanlış olmaz. Müəssisə regionda qeyri-neft sənayesinin inkişafına təkan verməklə bərabər əhalinin məşğulluğunun təminatı, bölgəyə yeni sərmayələrin cəlbi baxımından da önəmli rol oynamaqdadır. Bundan başqa, məlum olduğu üzrə ötən ay ölkəmizə səfər edən Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Füzulidə Türkmənistanın hədiyyəsi olan məscidin tikintisi ilə bağlı təşəbbüs irəli sürdü. Söz yox ki, bu təşəbbüs Böyük Qayıdış proqramına dəstəyin növbəti ifadəsi olmaqla yanaşı, Azərbaycan və Türkmən xalqları arasındakı qardaşlıq əlaqələrinin növbəti təcəssümüdür.

İyulun 17-də Şuşada Cıdır düzündə Prezident İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova "Dostluq" adlı Qarabağ atını, avqustun 22-də Türkmənbaşıda Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından dövlətimizin başçısına "Taus" ləqəbli "Axaltəkə" atını hədiyyə etməsi isə ortaq soykökümüzün, milli-mənəvi dəyərlərimizin, mədəni əlaqələrimizin rəmzi mənasını əks etdirən mühüm siyasi mesajdır. Prezident İlham Əliyev Türkmənbaşı şəhərində keçirilən yüksəksəviyyəli görüşün yekunlarına dair mətbuata bəyanatında da həm Özbəkistanın, həm də Türkmənistanın qardaşlıq hədiyyələrini, dəstəklərini münasibətlərin dərinləşməsi baxımından yüksək qiymətləndirdi, bu üç ölkə arasındakı dostluğun sözdə deyil, əməldə özünü sübuta yetirdiyini vurğuladı: ***"Bu, sözdə yox, əməldə dostluqdur, qardaşlıqdır. Bizim üçün ən vacib, ən çətin məsələlərdə həmişə qardaşlarımız yanımızda olub. Bu gün də bu belədir. Bu gün artıq burada səsləndi, bu, tarixi görüşdür, tarixi sammitdir, tarixi Zirvə görüşüdür".***

Ümumilikdə, Prezident İlham Əliyevin Türkmənistan səfəri, səfər müddətində keçirilən ikitərəfli, üçtərəfli görüşlər həm Azərbaycan-Türkmənistan əlaqələrinin, həm də Azərbaycan, Türkmənistan və Özbəkistan arasında qarşılıqlı əməkdaşlığın regional və beynəlxalq səviyyədə mühüm perspektivlərə malik olduğunu bir daha göstərdi. Əminliklə demək olar ki, Türkmənbaşı şəhərində keçirilən zirvə görüşü gələcəkdə nəqliyyat, tranzit, logistika, elektroenergetika, neft, qaz sahələrində mövcud birgə səmərəli fəaliyyətin və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi baxımından konkret addımların atılması üçün əsas yaratdı. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bütün göstərişlər verildi. Yenə də deyirəm, burada səslənmişdi – nəqliyyat, tranzit, logistika, elektroenergetika, neft, qaz sahələri və mədəni əlaqələr. Qaldı ki, bütün bu göstərişlərin vaxtında yerinə yetirilməsinə, mənim buna da şübhəm yoxdur. Həmkarlarımın fikrinə qoşularaq sözümün sonunda bir daha demək istəyirəm ki, bu, tarixi bir gündür. Bizim bölgəmizdə yeni, çoxperspektivli, sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı yaradılır".***

**"Şərq qapısı"**

# Hökumətin Azərbaycan Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclası keçirilib



Avqustun 26-da Nazirlər Kabinetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclas keçirilib.

İclası giriş nitqi ilə açan Baş nazir Əli Əsədov Azərbaycan Prezidentinin bütün dünyanın diqqət mərkəzində olan triumfal Vaşinqton səfərinin ölkəmizin beynəlxalq siyasi arenada nüfuzunu və mövqeyini daha da gücləndirməklə yanaşı, regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində yeni perspektivlər açdığını bildirib.

Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə yazılan 8 avqust Zəfərinin Prezident İlham Əliyevin güclü liderliyinin, qətiyyətinin və prinsipiallığının məntiqi nəticəsi olduğu vurğulanıb.

Vaşinqtonda keçirilmiş görüşlərin və imzalanmış sənədlərin əhəmiyyəti barədə bəhs edən Baş nazir səfərin bir tərəfdən Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, digər tərəfdən isə Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün təmin edilməsi istiqamətində mühüm addımların atılması ilə əlamətdar olduğunu diqqətə çatdırıb.

"Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) ilə bağlı əldə edilmiş razılığın əhəmiyyəti vurğulanaraq layihənin Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməklə yanaşı, regionda nəqliyyat əlaqələrinin inkişafına, ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyi diqqətə çatdırılıb. Bununla əlaqədar olaraq, müvafiq tapşırıqların icrası üçün hökumət tərəfindən gündəlik əsasda işin həyata keçirilməsinin zəruriliyi qeyd edilib.

Daha sonra Baş nazirin müavini Şahin Mustafayevin, xarici işlər naziri Ceyhun Bayramovun, iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin çıxışları dinlənilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin Vaşinqton səfərinin nəticələrindən irəli gələrək hökumət qarşısında duran vəzifələr müəyyən edilib.

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin çıxışı



Hörmətli Baş nazir, hörmətli tədbir iştirakçıları!

Bugünkü iclas dövlətçiliyimiz üçün mühüm bir məqamda keçirilir. Ölkəmizin qarşısında duran strateji hədəflər, regional və qlobal çağırışlar hamımızdan yüksək məsuliyyət tələb edir.

Bu günlərdə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin ilkin mətni paraflanmış, cənab Prezidentin ardıcıl və qətiyyətli siyasəti sayəsində olduqca taleyüklü məsələ həll olunmuşdur – Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz kommunikasiyanın qurulması üçün mühüm razılıq əldə olunmuşdur. Bu 2020-ci ildə döyüş meydanında kapitulyasiya edən Ermənistanın bu dəfə Azərbaycan Respublikası Prezidentinin dəmir iradəsi və qətiyyəti qarşısında tab gətirməyərək diplomatik müstəvidə də kapitulyasiyası kimi qiymətləndirilir.

Yaşanan bu tarixi hadisələr bu gün Naxçıvan Muxtar Respublikası üçün böyük perspektivlər açmaqla yanaşı, bütövlükdə, Azərbaycanımızın qarşısında duran strateji hədəflərə, regional və qlobal çağırışlara hazırlıqlı olmaq kimi böyük məsuliyyət tələb edir.

Naxçıvanlılar bu gün çox sevinclidirlər, çünki Azərbaycanın əsas hissəsi ilə quru sərhəddinin olmaması üzündən yaşadıqları bütün çətinliklərin çox yaxında arxada qalacağına əmindirlər. 35 il əvvəl erməni separatçılığı baş qaldıran zaman yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasəti Naxçıvanı işğaldan qorudu. O illərdə Ümummilli Liderimiz sayəsində Naxçıvan Azərbaycanın müqavimət qalası və gələcək qələbələrinin təməlinin simvoluna çevrildi.

Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilən Naxçıvanda Ümummilli Lider Heydər Əliyev tərəfindən məhz bu istiqamətdə görülən işlərin, atılan addımların Azərbaycanın gələcəyinə, yəni bu gününə istiqamətləndiyini əminliklə deyə bilərik. Ümummilli Liderimizin 1990-1993-cü illər ərzindəki fəaliyyəti Naxçıvanı gözləyən çox böyük fəlakətlərdən qoruyub, insanların gələcəyə olan ümidinin itirilməsinə imkan verməyib. Prezident İlham Əliyevin Ümummilli Liderimizin fəaliyyətinin Naxçıvan dövrü barədə danışarkən dediyi fikirləri bir daha xatırlatmaq istərdim. ***"Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".*** Məhz o illər ərzində Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti tarixə Azərbaycanın müstəqilliyinin xilası və quruculuq səhifəsi kimi yazıldı.

Sonrakı illərdə möhtərəm Prezidentimiz İlham Əliyevin qayğısı sayəsində respublikamızın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da geniş tikinti-quruculuq işləri görülüb, islahatlar aparılıb. Dövlətimizin başçısının davamlı dəstəyi və şəxsi qayğısı sayəsində Naxçıvan yeni bir mərhələyə qədəm qoyub: enerji təminatı, yollar, körpülər, sosial layihələr və iqtisadi təşəbbüslər həyata keçirilib. Muxtar respublikada elm və təhsil ocaqları, mədəniyyət, səhiyyə, idman obyektləri, inzibati binalar, körpülər, istehsal və xidmət sahələri tikilib.

2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta Dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmiş və Naxçıvanın inkişafının yeni mərhələyə çıxarılması zərurətini artırmışdır. Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" icra edilməkdədir.

Dövlət Proqramının qəbulundan sonra görülmüş işlərin sayəsində Azərbaycanın dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə ayrılan dotasiyanın həcmi 2022-ci ildəki 425 milyon manatdan 2025-ci ilin 7 ayında 120 milyon manatadək azalmışdır ki, bu da muxtar respublikada artıq islahatların öz nəticəsini verdiyini göstərir.

Möhtərəm Prezidentimizin tapşırıqlarının icrası istiqamətində aparılan işlər sayəsində 2025-ci ilin 7 ayı ərzində keçən ilin müvafiq dövrünə nisbətən ümumi daxili məhsul istehsalı 4,8% artaraq 927,3 milyon manat, əhalinin hər bir nəfərinə düşən ÜDM 4,3% artaraq 1967,1 manat, əsas kapitala yönələn vəsaitin həcmi 45,9% artaraq 118,4 milyon manat, sənaye məhsulu istehsalı 14,0% artaraq 297,5 milyon manat, pərakəndə ticarət dövriyyəsi 3,7% artaraq 789,4 milyon manat, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 5,8% artaraq 120,2 milyon manat olmuşdur.

İqtisadi fəal əhalinin sayı 3,5% artaraq 273 min nəfər, məşğul əhalinin sayı isə 0,8% artaraq 260 min nəfər olmuşdur. Ortaaylıq əməkhaqqı 6,3% artaraq 826 manata çatmışdır.

Cari ilin iyul ayının 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 60 565 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 37 305 nəfər, qeyri-dövlət sektorunda isə 23 260 nəfər təşkil etmişdir.

Büdcə xərclərinin 47,33%-nin yerli yığımlar hesabına maliyyələşdirilməsi proqnozlaşdırıldığı halda faktiki göstərici 64%-ə yüksəlmişdir.

Fiziki şəxslərin gəlir vergisi 19% artaraq 32 milyon, hüquqi şəxslərin mənfəət vergisi 8% artaraq 13 milyon, ƏDV 34% artaraq 41 milyon, aksiz 34% artaraq 44 milyon, mədən vergisi 22% artaraq 991 min manata bərabər olmuşdur. Yalnız sadələşdirilmiş vergidə cüzi azalma müşahidə olunmuşdur. Bu isə daşınmaz əmlakın satışına görə ödənilən vəsaitlərin və bank hesablarından nağdlaşdırma əməliyyatlarına görə sadələşdirilmiş vergi məbləğinin azalması ilə bağlıdır.

Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən icarə haqqı 42% artaraq 217,3 min manat, daşınmaz dövlət əmlakının icarəyə verilməsindən icarə haqqı isə 5,7 dəfə artaraq 334 min manata çatmışdır.

2025-ci ilin yanvar-iyul aylarında iqtisadiyyata ümumi kredit qoyuluşu 33% artaraq 252,5 milyon manat, əhalinin banklardakı əmanətlərinin həcmi 57% artaraq 31,8 milyon manat, nağdsız ödənişlərin həcmi 31% artaraq 592,3 milyon manat olmuşdur. Bank hesablarının sayı 11%, ödəniş terminallarının sayı isə 85% artmışdır.

Qarşıdakı hədəf yüksəkdir!

Biz anlayırıq ki, bölgəmizdə gedən proseslər, qlobal Orta Dəhliz yolunun əhəmiyyətli hissəsi olacaq Zəngəzur dəhlizinin reallaşması fonunda muxtar respublikanın sosial-iqtisadi inkişafı, logistika və bütün digər sahələrdə işlərin effektivliyinin daha da artırılması və çox qısa müddət ərzində hədəflərə çatılması üçün bütün qüvvəmizi səfərbər etməliyik.

Möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin fevral ayında təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin inşası sürətlə yekunlaşmağa doğru gedir. Bir neçə gün əvvəl Qars-İğdır-Aralıq-Dilucu dəmir yolu xəttinin təməli qoyuldu. Xüsusi vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin beynəlxalq tranzit layihəsinin gerçəkləşməsi istiqamətində apardığı fəaliyyətin hədəfləri genişmiqyaslıdır. Göründüyü kimi, işlər çox sürətlə aparılır və Naxçıvanda görülən işlərin də tempi artırılıb. Artıq muxtar respublika ərazisində bir çox layihələrdə texniki iqtisadi əsaslandırma işləri yekunlaşıb və layihələndirmə və tikinti işlərinə başlanıb. Sadaladıqlarımız Naxçıvanın nəqliyyat dəhlizi və logistik mərkəz funksiyasını yerinə yetirməyə hazır vəziyyətə gətirilməsinin tərkib hissəsidir.

Bu gün biz inanırıq ki, Zəngəzur dəhlizi açıldıqda Naxçıvanın tarixi izolyasiyası bitəcək, muxtar respublika təkcə ölkəmizin deyil, bütövlükdə, regionun iqtisadi yüksəlişində aparıcı rol oynayacaq.

İllərlə davam edən gərginlik və blokadadan sonra Azərbaycanın əsas hissəsi ilə birbaşa, fasiləsiz və təhlükəsiz nəqliyyat yolunun işə düşməsi Naxçıvan Muxtar Respublikası üçün yeni imkanların qapısını açır.

Yeni yollar, dəmir yolları, enerji xətləri və rəqəmsal bağlantının qurulması ilə Naxçıvan logistika mərkəzinə çevrilir. Bu həm də ticarət və turizm imkanlarının artmasına, yerli istehsalın ixrac potensialının güclənməsinə səbəb olacaq.

Zəngəzur dəhlizi Naxçıvanın iqtisadi inkişafını maksimal sürətlə gerçəkləşdirməyə xidmət edəcək. Açılacaq yollar ticarətin həcmini artıracaq, enerji və rəqəmsal kommunikasiya imkanlarını genişləndirəcək.

Zəngəzur dəhlizi təkcə kommunikasiya xətti deyil, o, Azərbaycanın iqtisadi, siyasi və geostrateji gücünü artıracaq yeni mərhələnin başlanğıcı olub, bütövlükdə, regionda sülh, sabitlik və əməkdaşlıq üçün qlobal əhəmiyyətə malikdir.

Zəngəzur və Naxçıvan məsələsi ilə yanaşı, ölkəmizin inkişaf gündəliyində bir sıra prioritet istiqamətlər də var. Bütün respublikada olduğu kimi, Naxçıvan üçün də rəqəmsal və şəffaf idarəçiliyin, yəni korrupsiyasız, vətəndaşa xidmət edən dövlət sisteminin inkişaf etdirilməsi, sosial rifah və məşğulluğun artırılması, xüsusilə gənclərin dəstəklənməsi və yeni iş yerlərinin açılması, eləcə də ekoloji təhlükəsizlik sahəsində – su resurslarının qorunması, "yaşıl enerji" layihələrinin həyata keçirilməsi sahəsində fəaliyyət xüsusi önəm kəsb edir.

Sonda bir daha qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikası sakinləri blokadadan çıxmağı və Azərbaycanın əsas hissəsi ilə quru yolu ilə maneəsiz gediş-gəlişin təmin olunacağı günün artıq yaxınlaşdığından böyük sevinc hissi duyur. Naxçıvanda sahibkarlar artıq dəhliz boyu biznes layihələri üzərində düşünür. Naxçıvan Muxtar Respublikasında dövlət orqanları Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun şəkildə fəaliyyətini daha da intensivləşdirərək qarşıya qoyulmuş hədəflərə çatmaq üçün bütün səylərini göstərəcəkdir.

Hörmətli həmkarlar,

Azərbaycan qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Bunun əsasında Prezident İlham Əliyevin uzaqgörən siyasəti dayanır. Bu gün biz hər bir sahədə fəaliyyətimizi həmin strateji kursa uyğun qurmalı, birlik və həmrəylik içində çalışmalıyıq. Zəngəzur dəhlizi Azərbaycan üçün yeni dövrün başlanğıcı, Naxçıvan üçün isə tarixi izolyasiyanın sonu olacaq. Çıxışımı bir fikirlə yekunlaşdırmaq istəyirəm: Zəngəzur dəhlizi təkcə yol deyil, Azərbaycanın bütövlüyünün və gücünün rəmzidir.

Təşəkkür edirəm!

# Milli təəssübkeşliyin və Vətənə xidmətin örnəyi



Humanizm, xeyirxahlıq, xoş əməllər sahibi olmaq Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın genetik kod yaddaşı, nəcib ailəsindən ona ötürülən mənəvi irsdir. Yüksək insani dəyərlərin daşıyıcısı olan Mehriban xanım Əliyevaya bu ali keyfiyyətlər, milli-mənəvi ideallar həm də doğulub böyüdüyü və yetişdiyi mühitdən əxz olunub. Dinindən, dilindən, irqindən asılı olmayaraq, insanlara dayaq-dəstək olmağı, onların üzünü güldürməyi, sözün əsl mənasında, həyat amalı sayan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həyat fəlsəfəsini elə özünün ifadə etdiyi bu bir neçə kəlmə aydın ifadə edir: *"Mən tam əminəm ki, mehribanlıq və səxavətlilik dünyamızı daha da yaxşılaşdıra bilər. Mən inanıram ki, humanizm, mərhəmət və sevgi bizim həyatımızı daha da xoşbəxt edir".*

### Mehriban xanım Əliyevaya edilən heç bir müraciət cavabsız qalmır

Mehriban xanım Əliyeva humanizmə köklənmiş çoxşaxəli fəaliyyəti ilə Azərbaycan xalqının, hər bir vətəndaşın qəlbində özünəməxsus yer tutub. Sosial statuslarından asılı olmayaraq, bütün vətəndaşlarımız Mehriban xanımın timsalında özünün ən böyük hamisini, himayədarını görür. Hansısa çətinliyə düçar olan, problemlərlə üzləşən, nəyəsə ehtiyacı olan insanların üz tutduğu birinci güvənc yeri də məhz Mehriban xanım Əliyevadır desəm, yanılmaram. Hər kəs bilir ki, Mehriban xanım ona edilən heç bir müraciətə qeydsiz qalmır, xahişi cavabsız qoymur, sidq ürəklə əlindən gələn qədər çalışır ki, insanlar naümid, çarəsiz vəziyyətdə qalmasın.

Əbəs yerə deyil ki, valideyn himayəsindən məhrum uşaqlar Mehriban xanım Əliyevanı özlərinin "mənəvi ana"sı sayırlar. Çünki bu uşaqların taleyini daim diqqətində saxlayan Mehriban xanım Əliyeva mütəmadi olaraq uşaq evlərində onlara baş çəkir, ünsiyyətdə olur, gələcək həyatlarında uğurlu olmaları üçün dəstək verir. Azərbaycanın birinci xanımı insanların xoşbəxt yaşamaları üçün onlara həyatın bütün sferalarında dayaq olur, təhsil, səhiyyə sahələrində əlindən gələn köməyi edir, sosial şəraitlərinin yaxşılaşdırılmasına çalışır.

Gücünü xalqının sevgisindən, hörmətindən, doğmalığından alan Mehriban xanım Əliyevanın Azərbaycan xalqının xoşniyyət, gülərüz, mehriban qızı olaraq əlamətdar günlərlə, bayramlarla bağlı etdiyi müraciətlərinin sonunda qürurla "Sizin Mehriban" imzasını qoyması da əbəs deyil.

### Çoxşaxəli fəaliyyət

Ötən illər ərzində dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi hərtərəfli inkişaf strategiyasına dayanan və uzaqgörən siyasəti sayəsində ölkəmiz tarixindəki ən qüdrətli dövrünü yaşayır. Torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü, suverenliyini tam təmin edən Azərbaycan bu gün dünyanın sayılıb-seçilən, nüfuzlu ölkələri sırasında gəlir. Eyni zamanda Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasəti uzun illərdən sonra bölgəmizə barış gətirib. Bu il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyannamə imzalamaları həm Cənubi Qafqaza uzunmüddətli sülh vəd etməsi, həm də ölkəmizin möhtəşəm diplomatik qələbə qazanması baxımından böyük tarixi əhəmiyyətə malikdir.

Azərbaycanın bugünkü qələbələr zirvəsinə ucalması birbaşa Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin həyata keçirdiyi düzgün və illərlə düşünülmüş uğurlu siyasətin nəticəsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva dövlətimizin rifahına xidmət edən bu inkişaf və uğurlu strategiyaya hər zaman Prezident İlham Əliyevlə çiyin-çiyinə, Onun yaxın silahdaşı kimi sidq ürəklə xidmət edir. Milli maraqlarımız uğrunda yorulmaz fəaliyyət göstərən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti çoxşaxəliliyi ilə seçilir. Hələ 2005-ci ildən etibarən üç çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmiş Mehriban xanım Əliyevanın deputat kimi fəaliyyəti də praqmatik addımlarla yadda qalıb. Seçicilərinə xüsusi diqqət və qayğı ilə yanaşan Mehriban xanım Əliyeva Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə milli qanunvericiliyimizin təkmilləşməsinə əhəmiyyətli töhfələr bəxş edib. Təşəbbüskarı olduğu amnistiya aktı layihələri əsasında minlərlə insanın azadlığa çıxması Mehriban xanım Əliyevanın humanizm ideyalarına dayanan əməllərinə növbəti nümunədir.

Azərbaycanın inkişafına, dünyada təbliğinə töhfələr verən ictimai-siyasi xadim Mehriban xanım Əliyeva fədakar silahdaş olaraq Prezident İlham Əliyevin ona həvalə etdiyi bütün vəzifələri uğurla yerinə yetirir. Onun təşkilatçılığı ilə Azərbaycan dövlətinin beynəlxalq miqyaslı neçə-neçə tədbirə layiqli şəkildə ev sahibliyi etməsinin şahidi olmuşuq. İstər "Eurovision" mahnı müsabiqəsi, istərsə də I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları olsun, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində yüksək təşkilatçılıq nümunəsini ortaya qoyub.

Azərbaycanda könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Birinci vitse-prezidentin böyük rolu var. Məhz hörmətli Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində yuxarıda sadaladığımız və ölkəmizin müvəffəqiyyətlə ev sahibliyi etdiyi digər mötəbər beynəlxalq tədbirlərdə, xüsusilə nəhəng iqlim sammiti COP29-da on minlərlə könüllünün fəaliyyətinə şərait yaradıldı.

Azərbaycanın birinci xanımının ölkə idmanının inkişafında da mühüm xidmətləri var. Azərbaycan Gimnastika Federasiyasının inkişafı isə birbaşa Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.

### Nümunəvi fəaliyyət

2017-ci il fevralın 21-də Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması ilə Azərbaycanın siyasi tarixində yeni bir səhifə açılmış oldu. Buna qədər hərtərəfli və humanizm dəyərlərini əsas tutan missiyası ilə Vətənə layiqli xidmət edən Mehriban xanım Əliyevanın Prezident İlham Əliyev tərəfindən Birinci vitse-prezident vəzifəsinə təyin olunması təsadüfi xarakter daşımayaraq, olduqca geniş, çoxşaxəli və məzmunlu fəaliyyətə əsaslandı.

Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyeva fəaliyyətində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi aparıcı siyasi kursun prinsip və şərtlərinə uyğun olaraq respublikamızın inkişafını, xalqımızın sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsini prioritet götürüb. Həmin vaxtdan ötən 8 ildən artıq dövr ərzində Prezident İlham Əliyevin yüksək etimadını doğruldan təqdirəlayiq fəaliyyəti ilə Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi xalqımızın böyük inamını və sonsuz sevgisini qazanıb. Başqa cür desək, Mehriban xanım Əliyeva Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürərək onların reallığa çevrilməsi istiqamətində atdığı addımları ilə qədirbilən xalqımızın Ona olan sevgisini, məhəbbətini daha da artırıb.

Milli və ictimai məzmunlu işləri, çoxşaxəli və səmərəli fəaliyyəti ilə Mehriban xanım Əliyeva həm də Birinci vitse-prezidentlik institutunda nümunə, məktəb yaradıb.

Çoxşaxəli fəaliyyətində sosial məsələlərin həllinə geniş yer ayıran Azərbaycanın Birinci vitse-prezidenti genişmiqyaslı və ictimai əhəmiyyətli layihələrin müvəffəqiyyətlə həyata keçirilməsində mühüm təşəbbüslər irəli sürüb. Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ yaradan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədilə yaradılan DOST layihəsi də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsidir.





Azərbaycanın layiqli ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu da fəal iştirakı ilə xüsusi diqqət çəkdi. Təbiətin mühafizəsinə fəaliyyətində geniş yer ayıran birinci xanım Mehriban Əliyeva BMT-nin nüfuzlu tədbiri çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda təşkil olunan konfransda etdiyi çıxışında da yaşıl dünyanın vacibliyini xüsusi vurğuladı. COP29 tədbirinin keçirildiyi ərazidə "yaşıl zona"da yerləşən Heydər Əliyev Fondu və qardaş Türkiyənin birinci xanımı Əminə Ərdoğanın təşəbbüskarı və rəhbəri olduğu Sıfır Atık Fondunun birgə yaratdıqları Həmrəylik Mərkəzi təbiətə həssas yanaşmanı, həqiqətən də, özündə əks etdirirdi.

Ölkəmizin rifahı naminə gecə-gündüz səylə çalışan, bu yolda dünya lideri Prezident İlham Əliyevə əsl silahdaş olan Mehriban xanım Əliyevanın fəaliyyətində diqqətçəkən mühüm məqamlardan biri isə onun təkcə doğma xalqımızın deyil, xalqların inkişafına hesablanmış və çoxdan sərhədlərimizi aşan xoşməramlı missiyasıdır. Dünyada çoxsaylı müharibələr gedir, vaxtaşırı pandemiyalar yayılır, dəhşətli təbiət hadisələri baş verir. Qlobal fəlakətlərlə mübarizə və onların fəsadlarının aradan qaldırılması istiqamətində bu gün də Mehriban xanım Əliyeva xeyriyyəçiliyin təmini üçün yorulmaz iş görür.

2023-cü ildə Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və göstərişi ilə zəlzələdən zərərçəkənlərə yardım və zəruri ehtiyaclar göndərilirdi ki, bu xoşməramlı əməl özündə təkcə humanitar yox, zəngin mənəvi çalarlar daşıyırdı.

Bundan əvvəl 2005-ci ildə Pakistanda baş verən və xeyli sayda insan tələfatına səbəb olan dəhşətli zəlzələ zamanı Müzəffərabad şəhərində təbii fəlakət zamanı dağılmış 150 nəfərlik məktəbin yerində 2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən 500 nəfərlik müasir məktəb binası inşa edilmişdi. 2012-ci ildə isə yenidən əsaslı təmir olunmuş Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva adına qızlar məktəbinin açılış mərasimi keçirilmişdi.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Parisdə Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkili, Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpası və bu kimi çoxsaylı və bəşəri irsin qorunmasına xidmət edən xoşməramlı missiyası dünyada geniş rezonans doğurub.

Hörmətli Mehriban xanım Əliyevanın yorulmaz və örnək götürüləsi fəaliyyətinin əsasını xalqımıza məxsus mənəvi dəyərlərin qorunması, ölkəmizin həqiqətlərinin dünyada təbliği, milli maraqlarımızın qətiyyətli müdafiəsi istiqamətində gördüyü işlər təşkil edir. Azərbaycan xalqı olaraq biz buna 27 sentyabr 2020-ci ildə başlayan zəfər yolçuluğumuz zamanı da yaxından şahid olduq. 44 günlük Vətən müharibəsinin hər günündə Mehriban xanım Əliyeva Birinci vitse-prezident olaraq bir dövlət xadimi, torpağını sevən bir azərbaycanlı kimi şanlı ordumuza, qəhrəman xalqımıza daim dəstək nümayiş etdirdi. Həmin çətin, sınaqlarla dolu mübarizə günlərimizdə Mehriban xanım Əliyeva haqq işimizin beynəlxalq aləmə duyurulması istiqamətində yorulmadan fəaliyyət göstərdi. Düşmənin cəbhə bölgəsindən uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə məruz qoyaraq mülki əhalimizi hədəf almasını beynəlxalq aləmə çatdırdı.

Həmin günlərdə rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımların birində Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edən birinci xanım Mehriban Əliyeva vurğulayırdı ki, bu gün xalq niyyəti, hərəkət və duaları ilə misli görünməmiş birlik göstərir: *"Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"*

Birinci xanımın bu duası həm də ana torpağımızın Mehriban xanım Əliyevanın qəlbində hansı əlahiddə müqəddəs məqamda olduğunun zərif təcəssümü idi.

Haqq uğrunda Vətən savaşına çıxdığımız 44 günlük müharibə zamanı cəbhədən qanadlanan qələbə müjdələri ilə yanaşı, şəhid xəbərləri də alıb dərindən kədərlənirdik. Həmin ağır günlərdə də daim xalqının yanında olan, onlarla birgə sevinib, birgə kədərlənən Mehriban xanım Əliyeva şəhid yaxınlarına ən böyük dayaq oldu.

*"Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm"*, – deyə keçirdiyi ağır sarsıntıları, şəhid ailələrinin dərdinə şərik olmasını, onların kədərlərini bölüşməsini bu cür kövrək sözlərlə ifadə etmişdi əziz Mehriban xanım.

Aprel döyüşlərində, 44 günlük müharibədə şəhid və qazi olanların ailələrinə Heydər Əliyev Fondu tərəfindən hərtərəfli kömək göstərilir, yaralılar yüksək texnologiyalı protezlərlə təmin edilir, dünyanın nüfuzlu xəstəxanalarında müalicə olunurlar. Mehriban xanım Əliyevanın tapşırığı əsasında Heydər Əliyev Fondu ağır yaralanan qazilərimizi müalicə və reabilitasiya üçün Türkiyəyə göndərib. Bu kateqoriyadan olan insanların problemlərinin həlli istiqamətində davamlı tədbirlər həyata keçirilir. Şəhid ailələri, qazilərimiz onlara göstərilən diqqətdən razılıqlarını ifadə edirlər.

### Heydər Əliyev irsinə ehtiramla

Ümummilli Lider Heydər Əliyevin milli ideyalarına əsaslanan və Mehriban xanım Əliyevanın uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi 22 illik zaman kəsimində, demək olar ki, ölkənin ictimai həyatının bütün sahələrində vacib işlərə imza atıb. Heydər Əliyev Fondu uzun illərdir, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Təhsil sahəsindəki "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi layihələr də bu qəbildəndir.

Artıq 5 ildir ki, Heydər Əliyev ideyalarının daha bir təntənəsi Qarabağda və Şərqi Zəngəzurda yaşanır. İşğaldan azad edilmiş bu torpaqlar indi yenidən qurulur, onlara yeni həyat verilir. Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə indiyədək görülmüş işlərin miqyası böyük, həm də qürurvericidir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən görülən işlər xüsusi alqışa layiqdir. Fondun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Qarabağda, Zəngəzurda həyata keçirilən quruculuq işləri azad edilmiş ərazilərin bərpası prosesinə böyük təkan və yaddaqalan töhfələr verir.

Dövlətimizin başçısı ilə birgə işğaldan azad edilmiş ərazilərə gedən hörmətli Mehriban xanımın dağıdılmış ərazilərimizlə bağlı çəkib paylaşdığı video görüntülər erməni vandallığını bir daha dünyaya tanıtdı. Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu işğaldan azad edilən torpaqlarımızdakı quruculuq işlərinə dəstək verir, xüsusilə də düşmən tərəfindən vəhşicəsinə dağıdılan tarixi, mədəni, dini irsimizin bərpası ilə əlaqədar mühüm fəaliyyət göstərir.

Prezident İlham Əliyevin Mehriban xanımla birgə işğaldan azad edilmiş Ağdama səfəri zamanı Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə hədiyyə etməsi Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini, mədəni irsimizin dirçəldilməsinin rəmzi oldu.

İşğaldan azad edilmiş ərazilərdə Heydər Əliyev Fondu tərəfindən ilk bərpa olunan abidələrdən biri böyük şair Molla Pənah Vaqifin məqbərəsidir. Görkəmli şairin Şuşa şəhərində yerləşən büstü də Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub. Cıdır düzündə yerləşən Mir Möhsün Nəvvab Qarabağinin məzarı və qəbirüstü abidəsi, məşhur tarzən, bəstəkar Sadıqcanın vaxtilə yaşadığı ev, "Şirin su" hamamı bərpa olunub, Milli Xalça Muzeyinin Şuşa filialı yenidən qurulub, Şuşa Yaradıcılıq Mərkəzi, Mehmandarovların malikanə kompleksi təmir-bərpadan sonra istifadəyə verilib. Üzeyir bəy Hacıbəylinin Şuşada yerləşən heykəli Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanıb.

Heydər Əliyev Fondu Şuşada Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa, Saatlı, Mamayı, Çöl Qala məscidlərini bərpa edərək dini ayinlərini icra etmələri üçün şuşalıların ixtiyarına verib. Şuşada təməli Prezident İlham Əliyev tərəfindən qoyulan yeni məscidin tikintisi də Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Həmçinin Ağdam Cümə məscidi əvvəlki görkəminə qaytarılıb, Zəngilan məscidində də Heydər Əliyev Fondu bərpa-tikinti işləri həyata keçirib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığına əsasən Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurda tarixən var olan mədəni ənənələrin bərpasını da həyata keçirir. İşğaldan azad edilən torpaqlarımızda 32 ildən sonra, 2021-ci ilin mayında zəfər qalamız Şuşada, Cıdır düzündə fond tərəfindən təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı bu ərazilərə milli ruhumuzun qayıdışını simvolizə etdi.

Bütövlükdə, Vətən müharibəsindən sonra Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı həyata keçirdiyi çoxsaylı layihələr bir daha Mehriban xanım Əliyevanın vətənpərvərliyinin təcəssümünə çevrildi.



### Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən tarixi missiya

Mehriban xanım Əliyevanın Vətənə xidmət qayəsinin mükəmməl örnəyini həm də bəşəriyyətin özü qədər qədim tarixə malik Naxçıvan Muxtar Respublikasının timsalında da görürük. Birinci xanımın müxtəlif vaxtlarda Prezident İlham Əliyevlə birgə bu ulu diyara səfərləri muxtar respublikanın inkişafında yeni tarix yazıb. Mehriban xanım Əliyevanın Prezident İlham Əliyevlə birlikdə Əshabi-kəhf ziyarətgahını ziyarət etməsi, 2008-ci ildə Türkiyənin o zaman Baş naziri vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində onun xanımı Əminə Ərdoğanla birlikdə Naxçıvan Dövlət Universitetində olması, 2009-cu ildə Prezident İlham Əliyevlə birlikdə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyində iştirakı Naxçıvan ictimaiyyəti tərəfindən hər zaman minnətdarlıqla xatırlanır.

2009-cu ildə Prezident İlham Əliyev və Mehriban xanım Əliyevanın Naxçıvan şəhərində Heydər Əliyev Sarayının əsaslı yenidənqurmadan sonra açılış mərasimində iştirakı, həmçinin Naxçıvan şəhərində "Badamlı" mineral sular zavodunun, Naxçıvan şəhərində yeni inşa olunmuş Şahmat Mərkəzinin, eləcə də Şərur rayonunda Olimpiya İdman Kompleksinin açılışlarında iştirak etməsi də buna bariz nümunələrdir.



2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Məhdud Fiziki İmkanlı İnsanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi yaradılaraq istifadəyə verilib. Mehriban xanım Əliyevanın muxtar respublikaya böyük hədiyyəsi olan mərkəzin açılışı zamanı Prezident İlham Əliyev də Heydər Əliyev Fondu tərəfindən yaradılan bu mərkəzin vacib əhəmiyyət daşıdığını vurğulamışdı: ***"Burada fiziki imkanları məhdud olan uşaqlar üçün bütün şərait yaradılıbdır. Bildiyiniz kimi, Heydər Əliyev Fondu çox böyük fəaliyyətlə məşğuldur. Azərbaycanın bütün bölgələrində məktəb tikintisi, xəstəxanaların avadanlıqla təchiz edilməsi, mədəni irsimizin qorunması sahəsində böyük işlər görür. Eyni zamanda uşaqlar, yeniyetmələr, kimsəsiz uşaqlar üçün şərait yaradılır".***

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun, xüsusilə Vətən müharibəsində şəhid olmuş Naxçıvandan olan övladlarımızın ailə üzvlərinə, qazilərə yaxından diqqət və qayğısı isə qədirbilən naxçıvanlıların yaddaşından heç vaxt silinməyəcək.

Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Naxçıvanın inkişafını daim şəxsi diqqətdə saxlamaları hazırda muxtar respublikanın öz inkişafının yeni mərhələsini yaşamasına gətirib çıxarıb. Son illər burada həyata keçirilən ciddi islahatlar muxtar respublikanın hərtərəfli inkişafını sürətləndirib.

Bu mənada, cari ilin iyununda Milli Məclisdə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi barədə Konstitusiya Qanununun layihəsinin təsdiq edilməsi böyük əhəmiyyətə malikdir. Onu da vurğulayım ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi Naxçıvanda hakimiyyətin bölgüsü prinsipinin tam müəyyən edilməsi baxımından əhəmiyyət kəsb edir. Adıçəkilən Konstitusiya qanununda əks olunub ki, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanı kimi nəzərdə tutulur. Ona rəhbərliyi Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi həyata keçirir. Burada göstərilir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər də ölkə Prezidenti tərəfindən təyin edilir və sair. Bütün bunlar ərazi bütövlüyü və suverenliyi tam təmin olunan Azərbaycanın demokratik və hüquqi inkişaf istiqamətində atdığı mühüm addımlardır.

Otuz ildən çoxdur ki, blokadadan əziyyət çəkən Naxçıvanın möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü uzaqgörən və məharətli siyasət nəticəsində Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Azərbaycanın əsas hissəsi ilə birləşməsi isə muxtar respublikanın, ümumilikdə, xalqımızın tarixindəki qürurverici və mühüm hadisələrdən biridir. Avqustun 8-də Ağ evdə mətbuata bəyanatla çıxışı zamanı ABŞ Prezidenti Donald TrampınNaxçıvanın adını xüsusi çəkməsi, TRIPP vasitəsilə Azərbaycanın Naxçıvana tam çıxış əldə edəcəyini qeyd etməsi məhz Prezident İlham Əliyevin yürütdüyü müdrik, məqsədyönlü və uzaqgörən siyasətin nəticəsidir.

İstər Birinci vitse-prezident, istər Heydər Əliyev Fondunun prezidenti və digər sahələrdəki çoxvektorlu fəaliyyəti göstərir ki, Mehriban xanım Əliyeva Azərbaycan dövlətinin, xalqının rifahı və inkişafı naminə yorulmadan və səylə xidmət göstərir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ötən illər ərzində həyata keçirdiyi fəaliyyətin qısa xronikasından da göründüyü kimi, bütün bu işlər Prezident İlham Əliyevin müəyyənləşdirdiyi və Azərbaycanı zirvələrə ucaldan, zəfərlərə yetirən inkişaf strategiyasının gerçəkləşməsi yönündə həyata keçib.

Bu çətin, məsuliyyətli, şərəfli və zərif missiyasında çox hörmətli və əziz Mehriban xanım Əliyevaya daim uğurlar arzulayırıq!

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin rəhbəri***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 17.09.2025, saat $10^{00}$, Sədərək rayonu, Sədərək Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılzadə Seymur Elbəyi oğlu, 070-335-67-05 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 20.09.2025, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 11.09.2025, saat $15^{00}$, Şərur rayonu, Kürçülü Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 26.09.2025, saat $15^{00}$, Şərur rayonu, Yengicə kənd tam orta məktəbinin binası, məktəbin kollektivi ilə | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 12.09.2025, saat $11^{30}$, Şərur rayonu, Alışar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 11.09.2025, saat $11^{00}$, Şərur rayonu, Arbatan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 10.09.2025, saat $10^{30}$, Şərur rayonu, Dərəkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 19.09.2025, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 23.09.2025, saat $15^{00}$, Şərur rayonu, Mahmudkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>24.09.2025, saat $15^{00}$, Şərur rayonu, Oğlanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04<br>Hüseynov Ənvər Ələsgər oğlu 060-416-95-10 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 22.09.2025, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 18.09.2025, saat $15^{00}$, Şərur rayonu, Şahbulaq Kənd Mərkəzi | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 17.09.2025, saat $15^{00}$, Şərur rayonu, Ələkli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 19.09.2025, saat $15^{00}$, Şərur rayonu, Oğuzkənd və Aşağı Daşarx sakinləri, Aşağı Daşarx Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 25.09.2025, saat $11^{30}$, Kəngərli rayonu, Qarabağlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qəmbərov Ramal Fərhad oğlu, 060-285-00-15 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 16.09.2025, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 10.09.2025, saat $11^{00}$, Kəngərli rayonu, Xok Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 24.09.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 04.09.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 24.09.2025, saat $10^{00}$, Babək rayonu, Badaşqan kəndi, səyyar qəbul | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 22.09.2025, saat $11^{00}$, Babək rayonu, Nəhəcir Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 16.09.2025, saat $15^{00}$, Babək rayonu, Məmmədrza Dizə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 24.09.2025, saat $11^{00}$, Babək rayonu, Aşağı Buzqov Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 12.09.2025, saat $11^{00}$, Babək rayonu, Cəhri qəsəbə 1 nömrəli tam orta məktəbin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyin qızı, 051-533-71-71 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 23.09.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 26.09.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 23.09.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, Hacıniyyət kəndi, səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 19.09.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 5 saylı Mənzil İstismar Sahəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 23.09.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 19.09.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 3 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 10.09.2025, saat $12^{00}$, Naxçıvan şəhəri, A.Cəlilov adına 12 nömrəli tam orta məktəbin binası<br>22.09.2025 saat $12^{00}$, Naxçıvan şəhəri, 4 saylı uşaq bağçasının binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 24.09.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 18.09.2025, saat $19^{00}$, Naxçıvan şəhəri, Hərbi şəhərcik, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 26.09.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>29.09.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 1 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 11.09.2025, saat $11^{00}$, Şahbuz rayonu, Külüs Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 10.09.2025, saat $11^{00}$, Şahbuz rayonu, Kolanı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 24.09.2025, saat $16^{00}$, Babək rayonu, Məzrə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 12.09.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 19.09.2025, saat $11^{00}$, Culfa rayonu, Gülüstan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 060-252-15-19<br>Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 18.09.2025, saat $11^{00}$, Culfa rayonu, Bənəniyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 21.09.2025, saat $10^{00}$, Culfa rayonu, Ərəfsə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 11.09.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>25.09.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 04.09.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>18.09.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>30.09.2025, saat $15^{00}$, Ordubad rayonu, Aşağı Əylis Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 23.09.2025, saat $16^{00}$, Ordubad rayonu, Vənənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 29.09.2025, saat $15^{00}$, Ordubad rayonu, Azadkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 25.09.2025, saat $12^{00}$, Ordubad rayonu, Xurs Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |

# Zaman Bağırov: "Dövlətin taleyinin həll olunduğu anlarda Ulu Öndərin mühafizəçisi olmaq qürur dolu məsuliyyət idi"

***Zaman keçsə də, cəmiyyətin inkişafında ziyalıların rolu dəyişməz olaraq qalır. Hər dövrdə maarifin, mənəviyyatın, vətənpərvərliyin daşıyıcısı olan ziyalılar millətin əsas sütunları hesab olunub. Bu ağır, lakin şərəfli yolu uğurla keçən ziyalılardan biri də Zaman Bağırovdur.***



Zaman müəllim Naxçıvan ziyalılıq məktəbinin yetişdirdiyi nümunəvi simalardan biridir. Uzun illər boyu Naxçıvanın ictimai-siyasi həyatında fəal iştirak edən ziyalımız ömrünün 65-ci ilində yenə də həyat eşqi ilə doludur. O, təkcə elm və peşəkar fəaliyyət sahəsində deyil, həm də mənəvi irsin qorunmasında və gənc nəslin tərbiyəsində əvəzsiz rolu ilə tanınır. O, Naxçıvan karete məktəbinin yaradıcılarından biri kimi idmanın inkişafına xüsusi töhfə verib, sağlam və məqsədyönlü gəncliyin formalaşmasında böyük rol oynayıb.

"Karate mənim ömür yolumdur", – deyərək söhbətə başlayan Zaman müəllim həmin illərini belə xatırlayır: "Gənclikdə ən böyük arzum milis (polis) işçisi olmaq idi. Bu arzuya bağlılığım məni idmana sövq etdirdi. Oxuduğum kitablardan anlamışdım ki, əsl polis işçisi sağlam, qorxmaz, çevik və cəld olmalıdır. Bu səbəbdən lap uşaqlıq dövründən idmana bağlandım və bir daha ondan ayrıla bilmədim. Aşağı siniflərdə oxuyarkən güləş, yuxarı siniflərdə oxuyarkən isə sambo ilə məşğul olmağa başlamışdım. Karate ilə məşğul olmağa isə ordu sıralarında başladım. Həmin vaxta qədər ölkəmizdə, o cümlədən keçmiş sovetlər birliyində karate idman olaraq yayılmamışdı, insanların o idmanla bağlı təəssüratları yox səviyyəsində idi. Bu idmanla məşluq olmağa başladıqdan sonra bunu özümə daha münasib bildim və demək olar ki, həyatımı bu idmana bağladım. Bu idman döyüş sənəti hesab olunduğundan idman cəmiyyətlərinin xətti ilə deyil, ovaxtkı SSRİ Nazirlər Sovetinin xüsusi nəzarəti ilə yayılırdı. Çünki karate idman növü kimi deyil, döyüş növü kimi öyrədilirdi. Bu döyüş sənəti ilə məşğul olmaq hər kəsə müyəssər olmurdu. Məhz 1981-ci ilin yazında bu idmanı Naxçıvan Muxtar Respublikasında xüsusi qabiliyyətləri yoxlanılmış gənclərə öyrətmək məqsədilə Moskvadan İlyas İsmayılov göndərilmişdi. Naxçıvanda ilk karate bölmələri onun rəhbərliyi ilə fəaliyyətə başlamış oldu və İlyas İsmayılovun bu sahədəki rolu danılmazdır. Həmin vaxt mən də bu döyüş sənəti ilə məşğul olmaq üçün müraciət etdim və sınaqlara qatıldım. İlyas müəllim məni öz tələbəsi kimi qəbul etdi, karatenin baza texnikalarını və onun sirlərini mənə öyrətdi, bu idmanı mənə sevdirdi. Onun yolunu davam etdirmişəm desəm, yerinə düşər".

1985-ci ildə karatenin döyüş sənəti kimi öyrədilməsi və öyrənilməsi tamamilə qadağan edildi. Lakin bu qadağalar karateyə bağlanmış insanları öz yolundan döndərə bilmədi. Zaman Bağırov karateyə qoyulan qadağalara baxmayaraq, bu sənəti yaşatmaq və yaymaq üçün fəaliyyətini gizli şəkildə davam etdirir. Səhərlər erkən saatlarda seçilmiş binaların zirzəmilərində – saat $5^{30}$-dan $7^{30}$-dək keçirilən məşqlər onun fədakarlığını əks etdirir. 30 ilə yaxın məşqçi-müəllim fəaliyyəti ərzində mindən artıq tələbə yetişdirir və bu gün Naxçıvanda fəaliyyət göstərən bir çox öndə gedən yüksək dərəcəli peşəkar karate müəllimləri onun yetirmələridir. Oğlu Tarıyel Bağırov 3-cü dan "Qara kəmər" sahibi olmuş, "Naxçıvan" karate klubunu yaradaraq atasının yolunu davam etdirməkdədir. Hazırda karate klublarında dərs deyən müəllimlərin əksəriyyəti, o cümlədən peşəkar karateçi məşqçilər Nəriman Quliyevin, Qələndər Bünyadovun Zaman Bağırovun tələbələri olduğunu öyrənirik.

Müsahibimiz həmin illəri yada salır: "1988-ci ildə karateyə qoyulmuş qadağa aradan götürüldü və ölkədə modernləşmiş "idman karatesi"nin yayılmasına icazə verildi. Yenidən leqal olaraq karate ilə məşğul olmağa başladıq. Komsomolun nəzarəti altında müəyyən bölgələrdə idman bölmələri yaradaraq gəncləri bu sahəyə yönləndirdim. Həmin vaxt ilk ixtisasım tarix müəllimliyi olduğundan orta məktəblərdə müəllim işləyə-işləyə karate dərsləri də keçirdim. Eyni zamanda təbliğat aparmaq üçün qəzetlərdə idmanla bağlı rubrika açıb karate məktəbi formalaşdırmağa çalışmışam".

Onun sözlərinə görə, 1990-cı ildən müəllimlik peşəsini dayandırmış və könüllü olaraq yenicə yaradılmış Dövlət Müdafiə Komitəsində xidmətə başlamışdır. İlk olaraq "Xüsusi təyinatlı bölüyün" (şərti olaraq "idman rotası"nın) əlbəyaxa döyüş rəhbəri, daha sonra isə "Xüsusi kəşfiyyat" bölüyünün komandiri olmuş və 15 nəfərədək idmanla məşğul olmuş, döyüş ruhlu gəncləri özü şəxsən seçərək bu bölükdə toplamış və onların döyüş ruhunun artırılmasına xüsusi diqqət ayırmışdı. Həmin döyüş ruhlu gənclər Naxçıvan Muxtar Respublikası ərazisində 1990-1992-ci illərdə erməni işğalçılarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etmişlər.

Zaman Bağırov bildirir ki, 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin şəxsi mühafizəçisi olması barədə xüsusi əmr alıb. Bu vəzifənin icra edilməsinin ona həvalə edilməsi Naxçıvan Muxtar Respublikasında da ictimai mühitin həmin dövrlər çox gərgin olması ilə əlaqədar olub. "Bu vəzifəni 1992-ci ilin payızından 1993-cü ilin yazınadək icra etdim. Ümummilli Liderə yaxın olmaq, dövlətin taleyinin həll olunduğu anlarda onun xidmətində durmaq, mənim üçün bir qürur mənbəyidir. Həmin dövrdə xatirəmdən heç vaxt çıxmayan yaşadığım bir hadisəni nəql etmək istəyirəm. Belə ki, 1992-ci ildə Bakıdan Naxçıvana Heydər Əliyevlə görüşmək üçün bir neçə nazir gəlmişdilər. Mən həmin vaxt Ali Məclisin binasında öz vəzifəmin icrasında idim. Nazir qoruyucularının formaları çox fərqli – döyüş bölgəsi formalarına bənzəyirdi. Onlar sanki strateji əhəmiyyət daşıyan bir mühüm dövlət orqanına deyil, döyüş bölgəsində döyüşə gedən əsgərlər kimi binaya daxil olaraq öz üstün mövqelərini göstərməyə çalışırdılar. Bakıdan gələn nazirlər Ali Məclisin Sədri ilə görüşmək üçün görüş otağına keçəndən sonra onların mühafizəçilərinə kütləvi şəkildə silah dolu üst-başla onların ardınca getmələrinə icazə vermədim və onlar bir problemlə üzləşdiklərini hiss etdilər. Mən onlardan silahlarını polisə təhvil vermələrini tələb etdim və bundan sonra bir neçəsinin müəyyən olunmuş məkana getmələrinə icazə veriləcəyini bildirdim. Mən cüssə etibarilə zəif göründüyüm üçün tabe olmaq istəmirdilər. Amma mövqeyimi dəyişmədim. Sonda şərtlə razılaşdılar və mən vəzifəmi uğurla yerinə yetirdim. Bu kimi hadisələr çox olub, amma hər biri qürurvericidir".



Həmsöhbətimiz qeyd edir ki, sonrakı illərdə onun xidmət sahəsi dəyişdirilmiş Naxçıvan Sərhəd Dəstəsində "MMQ" adlanan (Çevik hərəkətedənlər dəstəsində) bölükdə komandir müavini və həmçinin əlbəyaxa döyüş təlimi rəhbəri vəzifəsində çalışmış, sərhəddə silah daşıyan qaçaqmalçılara qarşı aparılan əməliyyatlarda, eyni zamanda 1995-ci ilin mart ayında dövlət çevrilişinə cəhd edənlərə qarşı aparılan döyüş əməliyyatlarına da tabeliyində olan əsgərlərlə birlikdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında karate idmanının daha geniş yayılmasını təmin etmək məqsədilə 1993-cü ildə müstəqil "İlğım" karate məktəbi, 2001-ci ildə isə həmin məktəbin bazasında "İlğım" Karate-do İdman Klubu yaradılmışdı. Klubun yaradılmasının əsas məqsədi gənclərin bu sahəyə marağını artırmaq, onların sağlamlığını möhkəmləndirmək, onlara qorxmazlıq, cəsarət və döyüşçü ruhunu aşılamaq idi. Əldə edilən nəticələrə görə, demək olar ki, "İlğım" Karate-do İdman Klubu qarşısına qoyduğu məqsədə nail olmuşdur.

Ölkədə sabitlik yaradıldıqdan sonra Zaman müəllim yenidən pedaqoji fəaliyyətlə məşğul olmağa başlamış, Naxçıvanda yerləşən hərbi məktəblərdə, o cümlədən Hərbi-idman təmayüllü orta məktəbdə karate və Naxçıvanda yenicə fəaliyyətə başlamış hərbi-liseydə tarix müəllimi işləyib. Sonradan ali hüquq təhsili də aldığından 2001-2007-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində çalışıb. 2007-ci ildə vəkillik fəaliyyəti ilə məşğul olmaq üçün keçirilən müsabiqədə iştirak edərək vəkil statusu qazanıb və 2011-ci ilədək bu peşədə çalışıb. 2011-ci ildə dövlət qulluğuna keçib. 2023-cü ilədək Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzində hüquqşünas, daha sonra sektor müdiri vəzifəsində də çalışıb. DİM ləğv edildiyindən vəkil statusunu bərpa edərək Naxçıvan şəhər Asan Vəkil Bürosunda vəkil kimi fəaliyyət göstərir.

Zaman müəllim müntəzəm olaraq fərdi idmanla məşğuldur, səhərlər dan yeri sökülən kimi sağlam həyat tərzini təmin etmək üçün velosiped yürüşünə çıxır. Eyni zamanda retro Azərbaycan filmlərini paylaşmağı xoşlayır. Bu sahədə sosial mediada öz izləyici auditoriyası formalaşıb.

"Möhkəm, mərd, cəsarətli olun. Dövlətimizin inkişafı üçün bacardığınızı əsirgəməyin. Xalqınıza layiqli gənclər kimi yetişin. Mən gəncliyimə baxanda fəxr edirəm, çünki illərim hədər getməyib. Keçən günlər üçün peşman deyilsənsə, deməli, xoşbəxtsən", – deyə Zaman müəllim əlavə edir.

Zaman Bağırovun həyat yolu, idmandan hüquqa, təhlükəsizlikdən mədəniyyətə qədər uzanan çoxşaxəli fəaliyyəti Naxçıvan ziyalılığının canlı nümunəsidir. Onun timsalında biz təkcə bir peşəkarı deyil, həm də cəmiyyət üçün çalışan, faydalı olan və daim öz üzərində işləyən bir ziyalını görürük. Belə insanlara ehtiyac bu gün də var, sabah da olacaq. Zaman dəyişsə də, ziyalılıq əbədi qalır.

**Bülbül RÖVŞƏNQIZI**



## Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyədə keçirilən komando kursunda iştirak edirlər

Azərbaycan ilə Türkiyə arasında imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından ibarət növbəti heyət "Dağ komando kursu"nda iştirak etmək üçün qardaş ölkənin İsparta şəhərinə yola düşüb.

Müdafiə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, Dağ Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçiriləcək kursda dinləyicilərə sutkanın istənilən vaxtı və müxtəlif şəraitdə müasir döyüşaparma üsulları, həmçinin yeni texnologiyaların imkanları öyrədiləcək.

Qeyd edək ki, kursun əsas məqsədi komando bölmələrinin döyüş vərdişlərinin artırılması və şəxsi heyətin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsidir.

# Vətənimizin alınmazlıq simvoludur Sədərək

Bu mənim Naxçıvanın "dəmir qapı" Dərbəndinə, qeyrət qalasına ilk gəlişim deyil. Yenə də Sədərəyi üç tərəfdən dövrəyə alan vüqarlı dağlara baxıram. Bu dağlar vüqarını Vətən oğullarının bu torpağa hopan qanından, sevgisindən alır deyə düşünürəm. Bir zamanlar barıt qoxusu gələn bu torpaqlardan indi gül-çiçək ətri gəlir.

Həmin illərdə bir tərəfdən blokada, bir tərəfdən də mənfur qonşumuz ermənilərin ardı-arası kəsilməyən hücumları Naxçıvanda çox təhlükəli, daha dəqiq desək, qorxunc bir vəziyyət yaradırdı. Belə vəziyyət Ümummilli Liderimiz Heydər Əliyev yenidən hakimiyyətə qayıdanadək davam etdi. Ulu Tanrı bu diyara dözüm, qətiyyət, səbir verdi, Naxçıvanın və naxçıvanlıların ən ağır günündə xalqın dahi oğlunu xilaskar kimi göndərdi. Dahi rəhbərin Naxçıvanda olması camaatı yurd-yuvalarından didərgin düşməyə qoymadı. Sakinlər güllə yağışı altında qalsa da, evini tərk etmədi; düşmən önündə dayandı, yurdlarını qorudular. Dahi rəhbərin Naxçıvana gəlişi yurdumuzu işğal təhlükəsindən qorudu, qədim diyarda möhtəşəm dəyişikliklərin, sözün həqiqi mənasında, intibahın əsası qoyuldu.

Azərbaycanın döyünən ürəyi Naxçıvanın alınmaz qalası Sədərək də dahi rəhbərin siyasətindən pay alıb gözəlləşib düşmənə gözdağı olub, dosta qürur yaşadır. Ulu Öndər Azərbaycanda siyasi hakimiyyətə gəldiyi ilk gündən də, Naxçıvanda Ali Məclisin Sədri olduğu dövrdə də, Azərbaycan Prezidenti seçildəndən sonrakı illərdə də diyarımızda görülən işləri yaxından izləyir və müxtəliftipli müəssisələrin açılış mərasimlərində iştirak etmək üçün muxtar respublikanın rayonlarına səfər edirdi. Onun cəbhə bölgəsi olan Sədərək kəndinə göstərdiyi qayğı və diqqət bugünkü Sədərəyin mövcudluğuna stimul olub. Məhz Sədərək rayonunun yaranması və inkişafı da Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq sərhəd yaşayış məntəqəsinin inkişafını diqqətdə saxlamış, 1990-1993-cü illərdə Sədərək işğaldan qorunmuşdur. Bu gün Heydər Əliyev siyasi xəttinə sədaqət Sədərək rayonunda davamlı inkişafı təmin etmiş, Heydərabad qəsəbəsində və kəndlərdə quruculuq işlərinin miqyası genişlənmiş, məskunlaşma artmışdır.

Ötən illərə nəzər yetirəndə görürük ki, 1969-cu ildə ölkə rəhbəri olan Ulu Öndərin 1978-ci il oktyabrın 15-də 2-ci dəfə Naxçıvana səfəri zamanı Sədərəkdə əhali ilə görüşü olur. O, kənd ağsaqqallarına, ziyalılara Sədərək üçün gələcəkdə görüləcək işlər barədə, xüsusilə sərhəddə salınacaq nümunəvi yaşayış qəsəbəsindən söhbətlər edir. Elə oradaca əlaqədar rəsmi şəxslərə Naxçıvan-İrəvan magistralının üstündə salınacaq bu qəsəbənin layihəsinin hazırlanması barədə tövsiyə və tapşırıqlarını verir. Beləliklə, sərhəddəki boş ərazidə görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə Baltikyanı layihəsi əsasında nümunəvi bir qəsəbə salınır və Sədərəkdəki yüzə yaxın ailə həmin qəsəbəyə köçürülür. Ən əsası isə düşmənə gözdağı olan bu qəsəbənin salınması ilə sərhəd bir qədər də möhkəmlənir… 1980-ci il may ayının 19-da yenə İrəvandan keçərək avtomobillə Naxçıvana gələn dahi rəhbər Sədərəyin bir çox əkin sahələrində olub, əməkçilərlə və kənd ağsaqqallarının nümayəndələri ilə görüşüb, bir çox yeni layihələri müzakirə edib. Rayondakı böyük şərabçılıq zavodu da məhz Ulu Öndərin göstərişi ilə yaradılıb, üzüm plantasiyaları salınıb.

Məlum siyasi hadisələrdən sonra 1990-cı il iyul ayının 22-də Naxçıvana qayıdan Ulu Öndər qızğın döyüşlərin getdiyi bir vaxtda – iyulun 28-də Sədərək kəndinə gəlir. Dəhnədə çadırlarda yaşamağa məcbur olan qadın və körpələrlə, səngərdəki oğullarla görüşən dahi rəhbərin buraya gəlməyi çadırlarda məskunlaşan Sədərək sakinlərinə də, səngərdə döyüşən oğullara da ruh yüksəkliyi verir.

Elə həmin ilin 28 avqustunda Sədərək rayonunun yaradılması haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı qəbul edilir. Daim sədərəklilərin yanında olan dahi rəhbər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən cəmi iki ay sonra imzaladığı "Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun inzibati-ərazi bölgüsündə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli Qərarı da birbaşa böyük şəxsiyyətin Sədərək rayonuna qayğı və diqqətinin təzahürü idi.

Sədərəkdə döyüşlərin ən şiddətli vaxtlarında belə bu kəndə dəfələrlə gələrək yerli sakinlər və döyüşçülərlə görüşən dahi insan həmin ağır günlərdə Sədərəyin müdafiəsində yaralananların taleyi ilə də maraqlanır, ağır yaralıların qardaş Türkiyənin müxtəlif şəhər xəstəxanalarına göndərilməsi üçün danışıqlar aparır. 1992-ci il mayın 28-i tarixdə əlamətdar hadisə baş verir. Həmin gün Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsünün açılışı olur. "Ümid" körpüsü ümidləri gerçəyə çevirir. Ulu Öndərin təşəbbüsü ilə körpü hazır olan kimi bu keçid vasitəsilə Naxçıvana xarici media nümayəndələri dəvət olunur. Həmin illərdə Naxçıvan həm mərkəzi hökumət tərəfindən gözdən iraq edilmiş, həm də informasiya blokadasına salınmışdı. Ulu Öndərin səyləri nəticəsində Sədərəyə gələn media nümayəndələri buradan reportajlar hazırlayaraq erməni vəhşiliyini dünya ictimaiyyətinə təqdim edir. Həmin çətin günlərdə dahi rəhbərin burada olması yurdumuzu işğal təhlükəsindən qorumaqla yanaşı, bu diyarı yox olmaq təhlükəsindən də azad etdi.

Dahi rəhbər Heydər Əliyev ölkə başçısı seçiləndən sonrakı vaxtlarda da qədim yurdumuzun hər bir bölgəsi kimi, Sədərək rayonunun inkişafını xüsusi diqqətdə saxlayıb. 2002-ci ilin avqustun 14-də Heydərabad qəsəbəsində rayon sakinləri ilə görüşdə Ulu Öndərin dediyi bu sözlər ***"Mən 1990-cı ildə Naxçıvana gələndə yaşayış məntəqələrinə ilk gedişim Sədərək rayonuna oldu. Yəqin ki, onu da xatırlayırsınız. Mən Naxçıvandan gələndən 3-4 gün sonra Sədərəyə gəldim. Nə üçün Sədərəyə? Çünki bu bizim həm ucqar yaşayış məntəqəmizdir, rayonumuzdur, həm də ki, insanlar burada ermənilərin hücumundan, onların atəşlərindən çox əziyyət çəkmişdilər… Mən bir neçə gün idi ki, Naxçıvana gəlmişdim. İlk çıxışımı Sədərəkdə etdim. Məhz buna görə, sədərəklilərin qəhrəmanlıqlarına görə, Azərbaycan torpağının bu ucqar yerində, sərhədində möhkəm dayandıqlarına görə və göstərdiyi şücaətə görə mən buraya gəldim"*** hələ də yaddaşlardadır.

Vətənimizin alınmazlıq simvolu olan Sədərək rayonu Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə bu gün inkişafının ən yüksək mərhələsindədir. Onun yadigarı olan Heydərabad qəsəbəsi gözəlliyi ilə göz oxşayır. Sədərəyin düşmən qarşısında əyilməzliyi, dik duruşu, düşmənə gözdağı oluşu dahi rəhbərindən ona miras olaraq qalıb. Vətənimizin döyünən ürəyi Naxçıvanın şah damarı olan Sədərəyi dövrəyə alan uca dağların başında dalğalanan bayrağa keşik çəkən, dağlara vüqar, Vətənə qürur verən oğullarımızın rəşadəti sayəsində hələ çox illər sonra da Sədərək qürurla yaddaşlarda qalacaq. Böyük Zəfərdən pay alacaq, Sədərək Böyük Turana qapı olacaq. Türkdilli xalqları bir-birinə birləşdirən körpüyə çevriləcək.

**Ramiyə ƏKBƏROVA**



# Naxçıvanın ucqar kənd məktəbindən yüz faiz nəticə

Ordubad rayonunun ucqar kəndi Unus kənd tam orta məktəbinin 4 məzunu bu il ali təhsil müəssisələrinə yüksək nəticə ilə qəbul olunub. Səhərin erkən çağında biz də Unus kənd məktəbinə yollandıq. Burada şagirdlər yalnız bilik və bacarıqla deyil, həm də intellektual qabiliyyət, geniş dünyagörüşü, milli-mənəvi dəyərlərə bağlılıq və vətənpərvərlik ruhunda yetişdirilirlər.

Unus kənd tam orta məktəbinin direktoru Məsmə Mirzəyeva ilə söhbətləşirik: "Bu nəticə təsadüfi deyil. Məktəbimiz hər zaman ilk onluqlarda yer almışdır. Bu da onunla bağlıdır ki, məktəbdə şagirdlərə yüksək təhsil vermək üçün hərtərəfli şərait yaradılıb. 2017-2018-ci tədris ilində məktəb 100 faiz nəticə göstərmişdi. Belə ki, həmin il məzun olan 5 şagirdin hamısı ali məktəbə qəbul olunmuşdu. Sonrakı illərdə nəticə 100 faiz olmasa da, hər zaman muxtar respublikanın orta göstəricisindən yüksək nəticə əldə etmişik. Ən əsası isə hər il bir məzunumuz 500-dən yuxarı bal toplayıb. Bu gün məktəbimizin tarixində qürurverici gündür. 100 faiz nəticə ilə çıxış etmək, bütün məzunlarımızın uğur qazanması hər birimizi sevindirir".

Məktəbə gəlmişkən məzunların da təəssüratlarını öyrənirik. Xeyrənsə Quliyeva deyir: "Uşaqlıqdan oxumağa, öyrənməyə, xüsusilə də ədəbiyyata böyük marağım olub. Bu gün isə çox sevincliyəm ki, qəbul imtahanında 412 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasına qəbul olmuşam. Əldə etdiyim nəticə heç də asan başa gəlməyib. Buraxılış imtahanından 196 bal, blok imtahanından isə 216 bal topladım. Düzünü desəm, öz gücümdən tam istifadə etmədim, daha yüksək nəticə göstərmək imkanım var idi. Amma mənim üçün əsas odur ki, qarşıma qoyduğum məqsədə çatdım. Bu uğurda valideynlərimin mənə verdiyi dəstək, müəllimlərimin əziyyəti danılmazdır. Onların hər birinin zəhməti nəticəsində bu gün tələbə adını qazanmışam".



Gələcək planları haqqında danışan Xeyrənsə bildirdi ki, universiteti bitirdikdən sonra magistratura təhsili almağı düşünür. Çünki Azərbaycan dili və ədəbiyyatı sahəsində özünü daha dərindən inkişaf etdirmək, həm elmi işlərlə məşğul olmaq, həm də gələcək nəsillərə faydalı bir şəxs kimi yetişmək istəyir.

Qurban Abdullayev: "326 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Coğrafiya ixtisasına qəbul olmuşam. Məktəbdəki dərslər, həm də əlavə hazırlıq kurslarında sərf etdiyim vaxt və əzmkarlığım sayəsində istədiyim ixtisasa qəbul olmaq imkanı qazandım. Coğrafiya ixtisasını seçməyimdə marağım əsas rol oynadı. Gələcəkdə bu biliklərdən istifadə edərək həm öz ölkəmizi, həm də dünyanın fərqli bölgələrini daha yaxından tanımaq istəyirəm. Məqsədim coğrafi məlumatlardan istifadə edərək xəritələr hazırlamaq, təbiət və ətraf mühitlə bağlı layihələrdə iştirak etmək, turistlərə və tələbələrə ətrafımızdakı yerləri daha yaxşı təbliğ etməkdir".

Naxçıvan Dövlət Universitetinin Kimya müəllimliyi ixtisasına qəbul olan Rüstəm Salmanlı da öz fikirlərini bizimlə bölüşdü: "Buraxılış imtahanından rahatlıqla 238 bal topladım. Blok imtahanında da yüksək nəticə əldə etdim. Valideynlərimin və müəllimlərimin mənə olan sonsuz inamı və dəstəyi sayəsində çətinliklərin öhdəsindən gəldim. İndi Naxçıvan Dövlət Universitetinin tələbəsi olaraq bu uğurun təməlində mənim potensialımla yanaşı, dəstəkçilərimin də rolu olduğunu bilirəm və bunu yüksək qiymətləndirirəm. Gələcək hədəflərimə gəlincə, təhsildə qazandığım biliklərlə həm də xaricdə təhsilimi davam etdirmək istəyirəm".

Azərbaycan Texniki Universitetinin Marketinq ixtisasına qəbul olan Ayhan Qənbərli: "Gələcək planım universiteti bitirdikdən sonra magistratura təhsili almaq və fəaliyyətimi Bakıda davam etdirməkdir. Onu da deyim ki, müəllimlər fədakar əməyin əsl qəhrəmanlarıdır. Müəllimlərimə dərin minnətdarlığımı bildirirəm".

Söhbət zamanı da şahid oluruq ki, Ordubad rayonunun ucqar kəndi olan Unusun məktəb kollektivi şagirdlərinə biliklə yanaşı, milli-mənəvi dəyərlərin də qorunub saxlanmasını aşılayır, gənclərin həm savadlı, həm də vətənpərvər ruhda böyüməsinə çalışır. Biz də yüksək nəticə qazanmış məzunlara gələcək həyat yollarında daha böyük nailiyyətlər arzulayırıq.

# Naxçıvan bazarı



## Kəndlinin alın tərinin şəhərlə qovuşduğu yer

Naxçıvanın gecəsi sakit olur, amma bu sakitliyin içində bir ürək döyünür, o da yerli sakinlərin dili ilə desək, "57" bazarıdır. Şəhərin mərkəzində yerləşən bu bazar gündüzlər səs-küylü, izdihamlı olsa da, gecələr tamamilə başqa bir aləmə çevrilir. İşıqların parıltısı ilə işıqlanmış piştaxtalar, ətrafa yayılan təzə meyvə-tərəvəzin qoxusu, alıcıların səsli-küylü söhbəti, bir sözlə, hamısı bir yerdə buranı nağıllardakı və filmlərdəki bazarlara oxşadır.

Biz də fotomüxbirimiz Zülfüqar Qurbanlı ilə gecənin bu sehrinə qarışmaq üçün bazara üz tutduq. Açığı, ürəyimizdə bir qədər tərəddüd də vardı. Fotoaparatı görən insanların sosial şəbəkələrdə fotolarının yayılmasını istəməyəcəklərini, üzlərini utancaqlıqla gizlədəcəklərini düşündük. Amma təəccüb doğuran o oldu ki, bazara daxil olan kimi sanki hamı bir-birinə xəbər verdi: "Qəzetdən gəliblər, çəkəcəklər bizi!" Birdən bazarın o səsli mühitinə təbəssümlər qarışdı. Kimisi səsləndi: "Qarpızı götür gəl, qəzetə düşəcəyik!" Kimisi zəhmətinin bəhrəsini, quraqlığın içində yetişdirdiyi Nehrəm qarpızını qürurla göstərdi. Bir satıcı isə qiymətə etiraz edən müştəriyə gülərək cavab verdi: "Yox, xala, vallah, elə mənə gəliş qiyməti odur!" Sanki bazarın ab-havası da özü ilə yumor gətirmişdi. Gecə bazarında addımbaşı başqa bir aləmlə rastlaşırsan.

Sağ tərəfdən yuxarıya doğru uzanan yol işıqların altında sanki parlaq bir çay kimi axırdı. İnsanlar axışıb gəlirdi: kimisi qış tədarükünə, mürəbbə və kompot üçün ən yaxşı meyvələri seçirdi, kimisi isə bazarın kənarında tüstüsü göyə qalxan kababçı dayının yanına toplaşmışdı. O isti kababın iyi ilə Nehrəm qarpızının təravəti qarışıb Naxçıvan gecəsini başqa bir qoxuya bürümüşdü. Piştaxtaların üzərində isə sanki rənglər bayram edirdi. Bir tərəfdə Ordubadın qırmızı zoğalı, o biri tərəfdə günəşin altında yetişib qızıl kimi parlayan şaftalılar. Üzümlər səliqə ilə düzülmüşdü, sanki inci dənələri düzülmüş bir boyunbağı. Qıpqırmızı pomidor, narıncı kök, yamyaşıl xiyar, təzə göyərti. Hər biri öz rəngi ilə göz oxşayırdı. Sanki bazar rəssamın əlindən çıxmış canlı bir tablo idi.

Qiymətlər də münasib idi. İnsanların üzündən razılıq oxunurdu. Satıcılar bizi öz piştaxtalarına çağırır, qürurla "Bizim də şəklimiz qəzetə düşsün", – deyirdilər. Bəziləri isə utancaqlıqla, amma ümidli gözlərlə baxırdı: "Görəsən, bəlkə, bizi də çəkərlər?" Biz isə çalışırdıq ki, hər kadrda bu zəhmətin, bu həyatın bir izi qalsın. Hər klikdə dondurduğumuz anlar, satıcıların gülüşü, alıcıların səsi, hamısı bir yerdə unudulmaz bir mənzərə yaradırdı. "57" bazarı təkcə alış-veriş yeri deyil, o, Naxçıvanın gecə nəfəsi kimidir. İnsanların ümidini, zəhmətini, sevincini, həm də bir az nostaljisini özündə yaşadan sehrli bir məkan kimi. Bu sehrli aləmdə bir satıcı qollarını kartof kisələrinə dayayıb yorğun baxışlarla ətrafa baxır, digər bir tərəfdə isə başqa satıcı yük maşınının arxasındakı kələmlərin yanında əyləşərək müştəri gözləyir...

Gecənin qaranlığında belə həyat burada dayanmaq bilmir. Sanki Naxçıvanın ürəyi "57" bazarında işıqlar altında döyünür. Bu bazar təkcə kənd təsərrüfatı məhsullarının satıldığı bir məkan deyil. O, Naxçıvanın gecə həyatının nəfəsidir, kəndlinin zəhmətinin, alın tərinin şəhərlə qovuşduğu yerdir. Burada satılan hər qarpız torpağın bərəkətini, hər üzüm salxımı günəşin zərrələrini, hər tərəvəz isə torpağın doğmalığını daşıyır. Bu bazarda alver yalnız pul və məhsul mübadiləsi deyil, burada insanlar öz arzu, ümidi, sevinclərini də bölüşürlər. Satıcı ilə alıcı arasında yaranan mehriban söhbət, uşaqların işıqların altında sevinclə qaçışması, yaşlı qadının öz məhsulunu qürurla təqdim etməsi, bütün bunlar "57" bazarını, sadəcə, bir alış-veriş yeri yox, bir həyat səhnəsinə çevirir.

Gecə saatlar irəliləsə də, bu bazar susmur. İşıqlar yanır, piştaxtalar parlayır, insanlar gəlib keçir. Hər kadrda, hər səsdə, hər qoxuda Naxçıvanın öz ruhu yaşayır. Və insan bu ab-havanın içində dərk edir ki, "57" bazarı, sadəcə, bu günün bazarı deyil, o, illərin yaddaşı, insanların zəhməti, şəhərin mədəniyyətidir.

Bəlkə də, sabah gün doğacaq, piştaxtalar boşalacaq, küçələr sakitləşəcək. Amma gecənin qoynunda parlayan bu bazar yaddaşlarda həmişə qalacaq, işıqları ilə, rəngləri ilə, qoxuları ilə, səsi ilə… Naxçıvan gecələrinin işıqlı nağılı kimi...

# Naxçıvanın su təchizatında mövcud problemlər və perspektivlər

Son illər iqlim dəyişikliyi və ekoloji təzyiqlər dünya miqyasında su ehtiyatlarının azalmasına səbəb olub. Bu qlobal prosesdən Naxçıvan Muxtar Respublikası da kənarda qalmayıb. Xüsusilə yarımsəhra iqlimi və məhdud su mənbələri ilə seçilən bu regionda içməli suyun davamlı və keyfiyyətli şəkildə təmin olunması həm əhali, həm də aidiyyəti qurumlar üçün prioritetlərdəndir. Məsələnin aktuallığını və mövcud vəziyyəti daha dərindən anlamaq məqsədilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Naxçıvan Şəhər Sukanal İdarəsi Texniki İstehsalat şöbəsinin rəisi Elnur Behbudov ilə söhbətləşdik:

***– Bildiyiniz kimi, son illərdə Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarının azalması müşahidə olunur. Bu azalma hansı əsas səbəblərlə bağlıdır?***

– Naxçıvan yarımsəhra iqlim qurşağında yerləşdiyi üçün su ehtiyatları, əsasən, yağıntılardan və dağlıq ərazilərdən gələn axınlardan formalaşır. Son illərdə iqlim dəyişikliyi və qlobal istiləşmə nəticəsində yağıntıların miqdarı azalmış, yay aylarında isə temperatur xeyli artmışdır. Bu amillər su hövzələrinin səviyyəsinin enməsinə səbəb olur. Buna baxmayaraq, qəza halları istisna olmaqla əhaliyə verilən içməli suda uzunmüddətli fasilələr yaranmır. Sukanal İdarəsi tərəfindən əhaliyə suyun fasiləsiz və keyfiyyətli şəkildə verilməsi üçün suyun tənzimlənməsi yüksək səviyyədə həyata keçirilir. Su xətlərinə mütəmadi baxış keçirilir, aşkar edilən nasazlıqlar operativ şəkildə aradan qaldırılır.

***– Naxçıvanda su təchizatı və kanalizasiya sistemində nə qədər su itkisi baş verir və bu itkini minimuma endirmək üçün hansı tədbirlər görülür?***

– Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi 2017-ci ildə başa çatdırılmışdır. Bu çərçivədə sistemlər müasir və yeni avadanlıqlarla təchiz olunmuş, bu da həm su itkilərinin azaldılmasına, həm də fasiləsiz su təminatının yaxşılaşdırılmasına şərait yaratmışdır. Hazırda şəhər əhalisi 24 saat fasiləsiz içməli su ilə təmin olunur. Su itkilərinin minimuma endirilməsi məqsədilə Sukanal İdarəsi tərəfindən mütəmadi reydlər və monitorinqlər aparılır, sudan qanunsuz istifadənin qarşısı alınır. Su xətlərinə daim nəzarət edilir, sızma və nasazlıqlar vaxtında aşkarlanaraq dərhal aradan qaldırılır.

***– Su ehtiyatlarının idarə olunması ilə bağlı Sukanal İdarəsinin yaxın gələcək üçün hansı strateji planları mövcuddur? Su qənaəti ilə bağlı ictimai maarifləndirmə işləri aparılırmı?***

– Əhaliyə verilən suyun ekoloji cəhətdən keyfiyyətli və fasiləsiz olması üçün su təmizləyici qurğular kompleksində mərhələli şəkildə yenidənqurma işləri aparılır. Eyni zamanda su qənaəti və sudan səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirləri də Sukanal İdarəsinin fəaliyyət istiqamətlərindən biridir. Bu məqsədlə ictimaiyyətə yönəlik çağırışlar, məlumatlandırıcı materiallar və təbliğat işi davam etdirilir.

***– İsti yay günlərində su qıtlığı riskini nəzərə alaraq sudan necə istifadə edilməlidir?***



– Yay aylarında əhalinin suya tələbatı artır və bu dövrdə suyun səmərəli istifadəsi xüsusi əhəmiyyət daşıyır. Suyun israfının qarşısını almaq, mümkün sızmaları dərhal aradan qaldırmaq və sudan qənaətlə istifadə etmək əsas tövsiyələrimizdəndir. Hər bir vətəndaş suya məsuliyyətli yanaşmalı, şəxsi istifadədə qənaət prinsiplərinə əməl etməlidir. Bu yalnız fərdi deyil, ümumi su təhlükəsizliyinin qorunması baxımından da mühüm rol oynayır.

Onu da qeyd edək ki, Naxçıvan Şəhər Sukanal İdarəsinin gördüyü işlər bir daha göstərir ki, su ehtiyatlarının idarə olunması təkcə texniki məsələ deyil, həm də ictimai məsuliyyət tələb edən bir prosesdir. Qlobal iqlim dəyişiklikləri fonunda suya qənaət və onun səmərəli istifadəsi hər bir vətəndaşın gündəlik həyatının bir parçasına çevrilməlidir. Elnur Behbudovun da vurğuladığı kimi, su yalnız bu günün deyil, gələcəyin də strateji sərvətidir və onun qorunması üçün həm dövlət qurumlarının, həm də cəmiyyətin birgə səyi vacibdir. Sudan kənar həyat yoxdur, bu həqiqəti unutmadan hər birimiz sudan istifadəyə məsuliyyətlə yanaşmalıyıq.

**Rafiq TƏHMƏZ**

# “Qarabağ” tarix yazmağa davam edir

28 avqust Azərbaycan futbol tarixinə qızıl hərflərlə yazılacaq günlərdən biri oldu. Tofiq Bəhramov adına Respublika Stadionunda baş tutan möhtəşəm futbolu və qazanılan qələbəni izləyərkən ekran qarşısında qürur dolu anlar yaşadıq.



UEFA Çempionlar Liqasının pley-off mərhələsində “Qarabağ”-“Ferentsvaroş” (Macarıstan) qarşılaşması 3:2 hesabla rəqibin qələbəsi ilə nəticələndi. Lakin iki oyunun ümumi nəticəsinə görə, (5:4) “Qarabağ” mərhələni adlayaraq tarixi uğura imza atdı və klub tarixində ikinci dəfə bu zirvəyə yüksəldi. Matç bitən kimi stadionda əsl bayram ab-havası yaşandı. Minlərlə azarkeş komandaya dəstəyini alqışlarla, sevinc göz yaşları ilə ifadə etdi. Azərbaycanın bütün bölgələrində, hətta ən ucqar kəndlərdə belə insanlar bu tarixi anı bayram kimi qarşıladılar. Sosial şəbəkələrdə yayılan görüntülər göstərirdi ki, bu qələbə milli qürurumuzun və birliyimizin rəmzidir. Bu zəfərin arxasında dayanan əsas sima, şübhəsiz ki, baş məşqçi Qurban Qurbanovdur. Onun illərlə formalaşdırdığı intizamlı komanda, soyuqqanlı qərarları və peşəkarlığı “Qarabağ”ı bu səviyyəyə gətirib çıxardı. Qələbədən dərhal sonra Prezident İlham Əliyev sosial şəbəkədə “Qarabağ”ı təbrik edərək futbolçuların, məşqçilərin və azarkeşlərin zəhmətini yüksək dəyərləndirdi. Dövlət başçısının səmimi sözləri hər bir azərbaycanlının qürurunu bir daha artırdı. Heç bir uğur təsadüfi deyil. “Qarabağ” da bu nailiyyəti ilə bir daha sübut etdi ki, bu adı daşımaq həm şərəf, həm də böyük məsuliyyətdir. Stadiondan yüksələn gurultulu alqışlar, sosial şəbəkələrdə milyonlarla insanın paylaşdığı təbriklər və Naxçıvandan böyük həyəcanla izləyən biz azarkeşlər bir səslə deyirik: “Qarabağ” tarix yazmağa davam edir!” Bizə qələbə yaraşır.



“Şərq qapısı”

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 29 sentyabr 2025-ci il tarixdə ikinci hərraca çıxarılacaq qeyri-yaşayış sahələri barədə məlumat

| S/s | Obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz (manatla) | Obyektin satış qiyməti (manatla) | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|---|
| 1. | Muğanlı kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 9,76 kv.m olan dərzi sexi | Şərur rayonu, Muğanlı kəndi | 2019 | 2850.0 | 2850.0 | 285.0 |
| 2. | Mahmudkənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 13,31 kv.m olan ayaqqabı təmiri sexi | Şərur rayonu, Mahmudkənd | 2011 | 2300.0 | 2300.0 | 230.0 |
| 3. | Kərimbəyli kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 15,40 kv.m olan dərzi sexi | Şərur rayonu, Kərimbəyli kəndi | 2019 | 3400.0 | 3400.0 | 340.0 |
| 4. | Kərimbəyli kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 32,73 kv.m olan ət satışı mağazası | Şərur rayonu, Kərimbəyli kəndi | 2019 | 9200.0 | 9200.0 | 920.0 |
| 5. | Ələkli kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 10,73 kv.m olan ət satışı mağazası | Şərur rayonu, Ələkli kəndi | 2018 | 3600.0 | 3600.0 | 360.0 |
| 6. | Kərimbəyli kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 12,41 kv.m olan gözəllik salonu | Babək rayonu, Kərimbəyli kəndi | 2012 | 2800.0 | 2800.0 | 280.0 |

**Qeyd:**

Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və özəlləşdirmə obyektinin ilkin satış qiymətinin 10 faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

Sifarişlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 ünvanında hərracın keçirilməsinə ən geci 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır.

Hərracda iştirak etmək istəyən şəxslər sifarişə aşağıdakı sənədləri əlavə edirlər:

1. Satıcı tərəfindən müəyyən edilmiş hesaba (AZ27NABZ12360150000000028944) behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;
2. Hüquqi şəxslər üçün təsis sənədlərinin təsdiq edilmiş surətləri;
3. Fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
4. Hərraclarda iştirak etmək üçün sifariş hüquqi və fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə o özünün sifarişçisi adından hərəkət etmək hüququnu təsdiq edən sənəd təqdim etməlidir.

Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

Hərrac 29 sentyabr 2025-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin inzibati binasında keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin *@nmr_herracmerkezi* “Instagram” hesabından və yaxud *nauksion.gov.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz.

Əlaqə telefonu: (036) 545-01-38; (060) 304-20-13

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 30 sentyabr 2025-ci il tarixdə hərraca çıxarılacaq nəqliyyat vasitələrinin siyahısı

| S/s | Balanssaxlayıcı müəssisənin adı | Əlaqəli şəxs | Nəqliyyat vasitəsinin markası | Dövlət nömrə nişanı | Buraxılış ili | Start qiyməti (manatla) | 10 faiz beh (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi | Şükürov Elçin Saleh oğlu (070) 666-03-66 | “NAZ LİFAN LF 820” minik | 70-AA-111 | 2019 | 6000.0 | 600.0 |
| 2. | Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsi | Şükürov Elçin Saleh oğlu (070) 666-03-66 | “UAZ 39094 YÜK” bortlu | 75-AC-158 | 2003 | 2200.0 | 220.0 |
| 3. | Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsi | Şükürov Elçin Saleh oğlu (070) 666-03-66 | “TOYOTA HİLUX MİNİK” pikap | 75-AA-139 | 2008 | 10300.0 | 1030.0 |
| 4. | Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsi | Şükürov Elçin Saleh oğlu (070) 666-03-66 | “URAL 4320” yanacaq çəni | 75-AC-323 | 1986 | 4500.0 | 450.0 |
| 5. | Naxçıvan Yaşıllaşdırma Xidməti | Şükürov Elçin Saleh oğlu (070) 666-03-66 | “NAZ LİFAN LF 7162 E-620 MİNİK” sedan | 85-AA-067 | 2014 | 3800.0 | 380.0 |

**Qeyd:**

Nəqliyyat vasitələri üzrə cərimə və məhdudiyyətlərlə bağlı məsələlərin həlli balanssaxlayıcı təşkilatlar tərəfindən təmin olunmalıdır.

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən şəxslərə satışa çıxarılan nəqliyyat vasitəsilə qabaqcadan tanış olmaq imkanı balanssaxlayıcı təşkilat tərəfindən yaradılır.

Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və nəqliyyat vasitəsinin ilkin satış qiymətinin 10 faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

Sifarişlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 ünvanında hərracın keçirilməsinə ən geci 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır:

Hərracda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd (hüquqi şəxslər üçün: notarial qaydada təsdiq olunmuş qeydiyyat şəhadətnaməsi, nizamnaməsi və VÖEN)
2. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd (10% məbləğində beh AZ27NABZ12360150000000028944 nömrəli hesablaşma hesabına ödənilməlidir).

Hərrac 30 sentyabr 2025-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin inzibati binasında keçiriləcəkdir.

Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin *@nmr_herracmerkezi* “Instagram” hesabından və yaxud *nauksion.gov.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz.

Əlaqə telefonu: (036) 545-01-38; (060) 304-20-13

## “Mədrəsə” tarix-memarlıq abidəsinin bərpası üçün ilkin işlərə başlanılıb



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında öz əksini tapmış layihələr, habelə investisiya layihələri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra işlər həyata keçirilir. Görülən işlərin davamı olaraq “Mədrəsə” tarix-memarlıq abidəsinin layihə-smeta sənədlərinin hazırlanması məqsədilə “BİMD” QSC ilə müqavilə bağlanılıb. Müqaviləyə əsasən şirkət tərəfindən XVIII əsr memarlıq abidəsinin layihə-smeta sənədləri hazırlanacaq.

## *İtmişdir*

Ordubad rayonu, Qoruqlar kəndində yaşamış İsmayılova Xoşqədəm Xurşud qızının adına olan JN-018A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Cəfərova Nənəxanım Xeyrulla qızının adına olan AA-006606, 103013003774 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Rüstəmov İbrahim Əbülfət oğlunun adına olan MN-0057094 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Aza kəndində yaşamış Səmədov Arzu Məmməd oğlunun adına olan JN-36 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini İsmayılov Abdulla İsmayıl oğluna məxsus 767A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kəndində yaşamış Əliyev Amil İbrahim oğlunun adına verilən 99A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Məmmədova Leylan M.Niftulla qızının adına olan JN-225A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini Yolçuyeva Bülbül Kərəməli qızının adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Abbasov Kamil Qabil oğlunun adına olan JN-1228 inventar nömrəli, 10600028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, ev 45, mənzil 6 ünvanında İsgəndərli Turqut Murtuz oğlunun adına olan mənzilin 32945 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kənd sakini Məhərrəmov Vüqar Məhərrəm oğlunun adına olan JN-671A nömrəli, 10300018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Tumbul kənd sakini Şadlinski Azər Ələsgər oğlunun adına olan JN-91A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Bağırov Damət Abdulla oğlunun adına olan JN-163 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon sakini Ağabalayev Əli Ramiz oğlunun adına olan MN-0053492 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Nəcəfov Nəsimi Abbas oğluna məxsus JN-186A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kənd sakini Şahbazov Əkbər Fərəməz oğluna məxsus JN-211A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Nəcəfov Xəqani Abbas oğluna məxsus JN-185A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini İsmayılov Ələddin Sabir oğlunun adına verilmiş JN-454A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Şəhriyar küçəsində yaşayan Sadiqova Bəsti Şıxəli qızının adına olan 567 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Möhsünov Hüseyn Abbas oğluna məxsus Culfa şəhəri, Hüseyn Cavid küçəsi, ev 19 ünvanında yerləşən fərdi yaşayış evinin 2754 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Aqrar Sığorta Fondu ləğv olunur.

ŞƏRQ QAPISI
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 600. Sifariş № 223

*Nömrəyə məsul:* Nail Əsgərov, Turan Məmmədli, Rafiq Təhməzov
*Dizayner:* Tacirə Vəliyeva
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*